QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 092 (5812) **22 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# İlham Əliyev: "Pensiyaların, əməkhaqlarının artırılması gündəlikdə duran məsələlərdən biridir"

Səh 2

*"Çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar"*





Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Kürdəxanı qəsəbəsində olub



5

Naxçıvan Ali Məclisində təltif və mükafatların təqdimatı olub



7

"Terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur"



7

Azərbaycana qarşı başladılan qərəz kampaniyası uğursuz nəticələnəcək!



10

Maliyyə naziri: "Problemli kreditlərin həlli ilə bağlı işlər mayın 28-dək yekunlaşacaq"



7

"Fuad Abbasovu müdafiə etməli, ona mənəvi dəstək göstərməliyik"



9

11

İlqar Məmmədov, bu, yaramazlıqdır...



11

"Paşinyanın "Şuşa yallısı" əks-inqilabı rəsmiləşdirdi"



14

Anti-Azərbaycan qüvvələri "siyasi mühacir" adı ilə sülənənləri "əyləc mexanizmi" kimi istifadə edirlər



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
22 may 2019-cu il

# İlham Əliyev: "Pensiyaların, əməkhaqlarının artırılması gündəlikdə duran məsələlərdən biridir"

*"Çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar"*

***Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət etdi. Sabunçu qəsəbəsinin sakini Arazxanım Mərdanova:***

- Bizim Sabunçu qəsəbəsinə xoş gəlmisiniz. Bu gün Sizin sayənizdə burada möhtəşəm dəmir yolu vağzalı açılır. Siz bunları xalqımızı, övladlarımızı düşünüb edirsiniz. Allah Sizə cansağlığı versin. Siz Ulu Öndərimizin davamçısısınız. Biz Sizə güvənirik, Azərbaycanımız Sizə güvənir. Siz bizim böyük dayağımızsınız. Sakinlər adından Sizə "Sağ olun!" deyirik.

Prezident İlham Əliyev:

- Çox sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, bu gün bu gözəl vağzal kompleksi istifadəyə verilir. Çox gözəl binadır. Bu binanın tikintisi bir daha onu göstərir ki, hər bir qəsəbənin problemləri diqqət mərkəzindədir. Çalışırıq ki, bütün qəsəbələrdə quruculuq-abadlıq işləri aparılsın, vətəndaşlar üçün yeni imkanlar yaradılsın. Dünyanın ən qabaqcıl şirkətlərindən birinin istehsalı olan yeni vaqonlar alınıb və bundan sonra gediş-gəliş çox rahat olacaq. Yolboyu Bakıxanov, Keşlə dayanacaqları da yenidən qurulub. Bu vağzal kompleksi də göz oxşayır. Şadam ki, bu gün belə bir gözəl tədbiri biz birlikdə qeyd edirik. Bu, bir daha onu göstərir ki, şəhər nəqliyyatına çox böyük diqqət yetirilir. İndi avtobuslar alınıb, bu il əlavə 300 avtobus alınacaq. Metro tikintisi gedir, yeni vaqonlar alınır, yollar çəkilir, dəmir yolu vağzalları, yəni, nəqliyyat infrastrukturumuz kompleks şəkildə yenilənir. Sizdə işlər necədir?

Sakinlər: Sağ olun, minnətdarıq.

Prezident İlham Əliyev: Həllini gözləyən, bu gün hələ həll olunmamış hansı məsələlər var?

Sakin Əkbər Hüseynov: Adi bir qəsəbədə belə gözəl vağzal inşa olunub. Bu, çox gözəldir. Bu qəsəbənin sakiniyəm, 70 ilə yaxındır ki, burada yaşayıram. Ancaq nə vaxtsa belə bir möhtəşəm binanın inşa olunacağı heç ağlımıza da gəlməzdi. Hər bir açılışı televizordan görəndə fərəhlənirdik. Bu gün özüm bu açılışda iştirak edirəm və bunu əyani surətdə görürəm. Çox sevinirəm. Əlbəttə ki, bunlar hamısı xalqın rifah halının yaxşılaşdırılması üçün Sizin gördüyünüz işlərdir. Sizə təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun. Demək olar ki, hər gün ölkəmizdə - Bakıda, bütün rayonlarda, Bakıətrafı qəsəbələrdə, hər yerdə hansısa obyektin açılışı olur, istər sosial obyekt, istər infrastruktur obyekti. İndi yol çəkilişi sürətlə gedir, Sabunçu rayonunun da yollarının təmiri ilə bağlı işlər görülür. Yəni, çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar, maddi rifah artsın, dolanışıq daha yaxşı olsun. Ona görə bu istiqamətdə bundan sonra da addımlar atılacaq. Pensiyaların, əməkhaqlarının, müavinətlərin artırılması gündəlikdə duran məsələlərdən biridir. Belə gözəl binalar vətəndaşlara xidmət edəcək.

Sonra Prezident İlham Əliyev yaxınlıqdakı mağazaya gəldi, alıcılar və satıcılar ilə söhbət etdi. Qarabağ müharibəsi əlili Məzahir Orucov: Xoş gəlmisiniz, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

Şəhid anası Səyyarə Nəzərova: Xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun, necəsiniz?

Səyyarə Nəzərova: Çox sağ olun, Allah Sizdən, dövlətimizdən razı olsun. Siz çox gözəl insansınız. Bizim dövlətimiz çox yaxşı dövlətdir. Çünki hər yerdə əmin-amanlıqdır, hamı qayğımızı çəkir, çox sağ olun.

Məzahir Orucov: Cənab Prezident, biz Qarabağ qaziləri Sizinlə fəxr edirik. Allah Sizi, dövlətimizi qorusun.

Prezident İlham Əliyev: Ticarət necə gedir?

***Ardı Səh. 3***





# İlham Əliyev: “Pensiyaların, əməkhaqlarının artırılması gündəlikdə duran məsələlərdən biridir”

*“Çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar”*

Əvvəli Səh. 2

Səyyarə Nəzərova: Çox yaxşı, şükür Allaha, hər günümüzə min şükür.

Prezident İlham Əliyev: Məhsulların neçə faizi yerli mallardır?

Satıcı: Demək olar ki, 90 faizi.

Sakinlər: Çox sağ olun, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun.

***

Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, Bakı sərnişin-Sabunçu dəmir yolu yenidən inşa olunub. Layihənin tərkib hissəsi olan Sabunçu dəmir yolu vağzalı tamamilə yenidən qurulub. İnşasına ötən ilin iyunundan başlanılan üçmərtəbəli binanın ümumi sahəsi 4,1 min kvadratmetrdir. Artıq Sabunçu də-




gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Hər üç mərtəbədə ticarət mərkəzlərinin yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır. Burada müasir dizaynla tərtib olunan istirahət guşələri sərnişinlərin rahatlığını təmin edəcək. İşçilərin əmək fəaliyyəti üçün bütün lazımi imkanın olduğu binada, eyni zamanda, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün də xüsusi şərait yaradılıb. Vağzalda müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb, iki piyada alt keçidi inşa edilib. Layihə çərçivəsində Sabunçu vağzalında iki yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb. Stansiyadakı üç dəmir yolu xətti tamamilə






mir yolu vağzalı kompleksi sərnişinlərə xidmət göstərməyə tam hazırdır.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsdi. Sonra xatirə şəkli çəkdirildi.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov dövlətimizin başçısına layihə üzrə görülən və görüləcək işlər barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, layihəyə əsasən Bakı dairəvi dəmir yolu xətti üzrə görülən işlərin davamı olaraq Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil keçidi, həmçinin Kürdəxanı kəndində uzunluqları 22 metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilib.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalında yaradılan şəraitlə tanış oldu.

Binanın birinci mərtəbəsində



yenidən qurulub. Sabunçu vağzalında dəmir yolu polisinin üçmərtəbəli binası da tikilib və zəruri avadanlıqla təchiz olunub.

Sonra Prezident İlham Əliyev Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşdü.

Qeyd edildi ki, bu marşrut üzrə dəmir yolu xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulub.

Bu gün Azərbaycan nəqliyyatının ən böyük sahələrindən biri dəmir yolu sektorudur. Azərbaycanın nəqliyyat sisteminin əsas sahələrindən olan dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir.

Ardı Səh. 4

www.sesqazeti.az
facebook Ses Media Holding

# İlham Əliyev: "Pensiyaların, əməkhaqlarının artırılması gündəlikdə duran məsələlərdən biridir"

*"Çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar"*

Əvvəli Səh. 3

Belə ki, son zamanlar bu sahənin inkişafı, yüksək dünya standartlarına çatdırılması istiqamətində məqsədyönlü layihələr, böyük həcmli işlər həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, qəbul olunan dövlət proqramları bu sahədə islahatların daha da sürətlənməsinə, dəmir yolu nəqliyyatı vasitələrinin müasirləşdirilməsinə müsbət təsirini göstərib. Bakı Sərnişin-Sabunçu dəmir yolu xəttinin yenilənməsi də bu işlərin davamıdır.

Dövlətimizin başçısı Bakıxanov dayanacağında yaradılan şəraitlə tanış oldu.

Dayanacağın ümumi sahəsi 7 min kvadratmetrdir. Burada iki turniket binası və platforma tikilib. Bundan başqa, 16 turniket, uzunluğu 30 metr, eni 3,9 metr olan yerüstü piyada keçidi inşa edilib. Bakıxanov dayanacağının ərazisində yaşıllıqlar salınıb, avtomobillər üçün dayanacaq yaradılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş platformalarda sərnişinlərin rahatlığı üçün hər cür şərait var.

Bildirildi ki, Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərində yerləşən Koroğlu dayanacağının ümumi sahəsi isə 15 min kvadratmetrdir. Dayanacaqda iki turniket binası inşa edilib, 17 turniket, müasir işıqlandırma dirəkləri, oturacaqlar quraşdırılıb.

Sonra Prezident İlham Əliyev Keşlə dayanacağında yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 10 min kvadratmetr olan Keşlə dayanacağında da iki turniket binası tikilib. Bundan başqa, dayanacaqda iki platforma, 10 turniket, uzunluğu 39 metr, eni isə 2,5 metr olan yeraltı piyada keçidi mövcuddur. Ətrafda yaşıllıq və abadlıq işləri görülüb, avtomobillər üçün dayanacaq yaradılıb. Platformada müasir işıqlandırma və yanğınsöndürmə sistemi quraşdırılıb.

Diqqətə çatdırıldı ki, Nərimanov stansiyasının binası da əsaslı təmir edilib, platformalar və buradakı yerüstü piyada keçidi yenidən qurulub. Stansiyada yeni dəmir yolları salınıb və müasir işıqlandırma dirəkləri quraşdırılıb. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə bütün rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigellər və kontakt şəbəkəsi yenidən qurulub.

Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf strategiyasının bəhrəsidir. Bu strategiya Azərbaycanı Qərb ilə Şərq, Şimal ilə Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir. Prezident İlham Əliyevin görülən işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatdı. Sonda xatirə şəkli çəkdirildi.









# Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Elmlər Akademiyasının prezidentini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.***



AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyev Azərbaycan Respublikasının Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə, Rusiya Elmlər Akademiyası üçün böyük önəm daşıdığını dedi. Əvvəlki illərdə Elmlər akademiyaları arasında birgə səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Aleksandr Sergeyev sonrakı dövrlərdə elmi əlaqələrin qırıldığını vurğulayaraq indi bu əlaqələrin yenidən bərpa edilməsinin zəruriliyini bildirdi. O, ölkəmizə səfərinin əsas məqsədinin bundan ibarət olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı elm sahəsində əvvəllər mövcud olan ənənəvi əlaqələrin hazırkı dövr və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas yaratdığını bildirdi. Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərə toxunan dövlətimizin başçısı ölkələrimizin gələcək elmi əməkdaşlığı üçün yaxşı potensialın olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının elm sahəsində də əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi. Dövlətimizin başçısı Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin Azərbaycana səfərinin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafı və bu sahədə konkret addımların atılması işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Kürdəxanı qəsəbəsində olub

***Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olublar.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əvvəlcə Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbinə gəldilər. Məlumat verildi ki, Kürdəxanı qəsəbəsində 6 min nəfər əhali yaşayır. Burada bir məktəb var. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu təhsil ocağının siniflərinə baxdılar, müəllim və şagirdlərlə görüşdülər.

113 saylı tam orta məktəb 2 korpusdan ibarətdir. Birinci korpus 1971-ci ildə inşa olunub. Sonuncu dəfə burada cari təmir işləri 2006-cı ildə aparılıb. Tədrisin Azərbaycan dilində aparıldığı məktəbdə ümumilikdə 2320 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100 müəllim məşğul olur. Burada tədris 2 növbəlidir. Mehriban Əliyevaya məlumat verildi ki, məktəbin 2-ci korpusu isə











2008-ci ildə inşa olunub. Birinci vitse-prezident məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verdi.

***

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Kürdəxanı qəsəbəsinin sakini Telman Əliyevin evində qonaq oldular.

Qeyd edək ki, Telman Əliyev ailəsi ilə birlikdə Mərdəkan qəsəbəsində yerləşən ziyarətgahda olarkən Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşüblər və Mehriban Əliyevanı evlərinə çay süfrəsinə dəvət ediblər.

Telman Əliyevin ailəsi ilə görüşdə Mehriban Əliyeva bildirdi ki, qəsəbənin sosial-iqtisadi inkişafı, iş yerlərinin yaradılması istiqamətində işlər bundan sonra da davam etdiriləcək. Ailə üzvləri Kürdəxanı qəsəbəsinin inkişafına göstərdiyi diqqətə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq etdilər. Sonda Telman Əliyevin ailəsinin adından Mehriban Əliyevaya hədiyyə təqdim olundu və xatirə şəkli çəkdirildi.

# Dövlətin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır

*Prezident İlham Əliyev: “2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir”*

***“Prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi Fərman idi və onun icra edilməsi nəticəsində, 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacaq”. Bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında deyib. Dövlət başçısı qeyd edib ki, bu ilin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər ölkənin potensialını daha da gücləndirib: “İslahatların davam etdirilməsi üçün biz çox ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək”.***



## Uğurlu yüksəlişin əsasında, əlbəttə ki, xalq-iqtidar vəhdəti dayanıb

Uğurlu inkişafın əsasında, əlbəttə ki, xalq-iqtidar vəhdəti dayanıb. Azərbaycan son 16 ildə çox güclü və sürətli inkişaf yolu keçib və bu illərdə əldə edilən bir çox uğurlar və qarşıya qoyulmuş vəzifələr dövlətimiz tərəfindən təmin olunub. Bütövlükdə isə, görünən budur ki, ölkəmizin rəhbərliyi tərəfindən atılan hər bir addım, bilavasitə xalqımızın rifah halının gücləndirilməsinə, müstəqilliyimizin bünövrəsinin daha möhkəm təməllərə söykənməsinə hesablanıb. İstər daxili, istər xarici, istər sosial-iqtisadi, istərsə də digər sahələri əhatə edən bu yüksəlişin əsasında isə, əlbəttə ki, xalq-iqtidar vəhdəti dayanıb.

## “Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq”

Azərbaycanda vətəndaş-dövlət təması formatında da bir sıra yeni modellər reallaşdırılır. O cümlədən, Prezident İlham Əliyevin sadə azərbaycanlılara göstərdiyi diqqət və qayğısı, xüsusilə şəhid ailələri və təqaüdçülər, aztəminatlı ailələrin sosial-məişət təminatları ilə bağlı aparılan dövlət siyasəti həmin reallığı hərtərəfli şəkildə təcəssüm edir. Çünki dövlət başçımız bütün çıxışlarında vurğulayır ki, Azərbaycanda aparılan siyasətin mərkəzində vətəndaş amili dayanır.

“Əlbəttə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq” qeyd edən Prezident İlham Əliyev son illərdə bu istiqamətdə çox böyük işlərin görüldüyünü deyib: “Baxın, köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir. Yəni mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir. Mən bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm, hansı ölkə-



də bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım edilmişdir. Bu da, dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır. Eyni zamanda, dediyiniz kimi, bu yanaşma daha böyük yanaşmanın tərkib hissəsidir - dövlət-vətəndaş münasibətlərinin. Hesab edirəm ki, bu münasibətlər Azərbaycanda sağlam zəmində qurulub. Vətəndaş bu gün bilir ki, dövlət güclü olarsa, onun da həyatı təhlükəsiz olar, risksiz olar, rahat olar və ildən-ilə artan maddi rifah daha da çoxalar”.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada irimiqyaslı layihələrin təşəbbüskarı və uğurlu icraçısı kimi tanınır. Bu gün Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordu sırasında yer alır. Dünyada böyük maraq doğuran Azərbaycan brendi - “ASAN Xidmət” təcrübəsi bir sıra ölkələr tərəfindən öyrənilir və tətbiq edilir. Dünyada böyük multikultural dəyərlərə malik ölkə kimi tanınan Azərbaycanda, ötən 16 il ərzində, milli-mənəvi dəyərlərin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub-saxlanılması istiqamətində mühüm işlər görülüb. Bütün bunlar dövlətimizin başçısı İlham Əliyevin 16 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır.

Göründüyü kimi, Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Bu gün dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə dünyaya nümunə göstərilən bir inkişaf modeli formalaşıb. Ən önəmli məqam isə, ondan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə, ötən dövr ərzində, əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmiş və mühüm uğurlar əldə olunmuşdur.

Bir sözlə, Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır.

***RƏFİQƏ KAMALQIZI***

# "Terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur"

*Tovuzda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilir*

***Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atıb. Bu fikir mayın 21-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfransda səsləndirilib.***



Tədbirdə dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Regional konfransda ölkəmizdə dini sahəyə göstərilən diqqət və qayğıdan bəhs olunub, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyi, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığı diqqətə çatdırılıb. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atır. Komitə sədri vurğulayıb ki, dövlətin dini icmalara göstərdiyi qayğı gündən-günə artmaqdadır. Böyük tarixə malik məbədlərin təmir və bərpası davam etdirilir, dini ayinlərin icrası üçün yüksək şərait yaradılır.

Çıxışında dinin siyasiləşdirilməsinin fəsadları barədə də danışan Mübariz Qurbanlı diqqətə çatdırıb ki, terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur. Hamımız bilirik ki, İslamın mütərəqqi dünyabaxışı, həyat fəlsəfəsi qətiyyən zorakılığı, radikallığı təbliğ etmir. İslam dini müqəddəsdir və onun əsas mahiyyəti sülhdür, dostluqdur. Onun sözlərinə görə, bəzi din adı altında fəaliyyət göstərən qüvvələr öz siyasi, yaxud digər maraqları çərçivəsində dini baxışları radikal formada təqdim edir, ekstremizmə rəvac verirlər. DQİDK sədri bu cür mənfi təzahürlərin qarşısının alınmasında dini maarifləndirmənin xüsusi əhəmiyyətə malik olduğunu deyib.

Milli Məclisin deputatı Qənirə Paşayeva Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində həyata keçirdiyi tədbirlərin önəminə toxunub. İslam dininin olduğu kimi, sağlam əsaslarla gənclərə təbliğ edilməsinin vacibliyini vurğulayan deputat bunun əksinin cəmiyyətdə bir çox fəsadlara səbəb olduğunu deyib. O qeyd edib ki, son dövrlər bəzi müsəlman ölkələrində baş verən münaqişələr dini radikalizm, məzhəb ayrı-seçkiliyi və xurafatdan qaynaqlanır. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizə yad olan ideologiyaların təbliğinin yolverilməz olduğunu dilə gətirən Q.Paşayeva cəmiyyətin düzgün dini biliklərlə məlumatlandırılmasının dini radikal qrupların təsirindən qorumaq baxımından olduqca əhəmiyyətli olduğunu bildirib. Deputat, həmçinin Azərbaycanda mövcud olan dövlətdin münasibətlərindən bəhs edib, ölkəmizin nümunəvi tolerantlıq modeli nümayiş etdirdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, müzakirələrlə yekunlaşan konfrans işini mayın 22-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# Naxçıvan Ali Məclisində təltif və mükafatların təqdimatı olub

***Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək deyib: Bu gün Azərbaycanda möhkəm dövlətçilik vardır. Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun da nəticəsində ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Ölkəmizdə müxtəlif sahələrdə çalışan vətənpərvər insanlar isə öz əməkləri ilə dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verirlər.***



Ali Məclisin Sədri deyib: Dövlət və xalq qarşısında xidməti olanlar o yerdə təltif olunurlar ki, həmin ölkədə dövlətçilik ənənələri, sabitlik və inkişaf olsun. Bu gün xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin təltif olunması da ölkəmizdə dövlətçilik ənənələrinin inkişaf etdiyini göstərir. İnsan əməyinə qiymət verilərkən o daha da məhsuldar olur. Təltif olunanlar da çalışdıqları sahələrdə nümunə göstərən, öz xidmətləri ilə fərqlənən insanlardır.



"Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verməlidir. Çünki dövlətçiliyin möhkəmlənməsi ölkənin davamlı inkişafı və sabitliyi deməkdir", - deyən Ali Məclisin Sədri təltif olunanlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Sonra Ali Məclisin Sədri medalları, Naxçıvan Muxtar Respublikasının fəxri adını, eləcə də Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim edib. Təltif olunanlardan Vüsal Əliyev, Füzuli Kazımov, Tahir Mirzəliyev, Rəşad Əliyev və Səbuhi Məmmədov əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq ediblər. Qeyd olunub ki, bundan sonra da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, səmərəli fəaliyyət göstərərək ölkəmizin inkişafına töhfə verəcəklər.

Prezident mükafatçılarından Natiq Məmmədov, Əbülfəz Məmmədov, Zülfiqar Mahmudov, Zeynalabdın Babayev, Tamerlan Bağırov, Səyyad Məmmədov və Gülnarə Hüseynova minnətdarlıq edərək deyiblər ki, Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, mədəniyyətin, incəsənətin inkişafına da xüsusi diqqət yetirilir. Milli dəyərlərimiz qorunur, muğam sənətimiz, milli musiqimiz və rəqslərimiz yaşadılır. Bu sahələrdə çalışanların təltif olunması da göstərilən diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri qarşıdan dövlətçiliyimizin təməlinin qoyulduğu və elan edildiyi 28 May Respublika Gününün gəldiyini bildirib, bu münasibətlə təltif olunanları və onların timsalında muxtar respublika əhalisini təbrik edib.

## Maliyyə naziri: "Problemli kreditlərin həlli ilə bağlı işlər mayın 28-dək yekunlaşacaq"



Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanda nəzərdə tutulmuş tapşırıqların icrası mayın sonunadək təmin ediləcək. Söhbət, ilk növbədə, xarici valyutada olan kreditlərdən gedir. AZƏRTAC xəbər verir ki, bu barədə Maliyyə naziri Samir Şərifov jurnalistlərə müsahibəsində deyib.

Nazir qeyd edib ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının sifarişləri əsasında lazım olan məbləğ müvafiq bank hesablarına köçürülüb. Bu işlərin mayın 28-dək başa çatdırılması planlaşdırılır.

# Naxçıvanda dörd ayda 40 milyon 232 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub

Bu ilin yanvar-aprel aylarında muxtar respublikada 40 milyon 232 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çoxdur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu dövrdə diri çəkidə ət istehsalı 7 min 940 tona, süd istehsalı isə 25 min 676 tona yaxın olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,5 faiz, süd istehsalı isə 1,6 faiz artıb.



Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılıb, 2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 24 milyon 51 min 100 manat məbləğində kreditlər verilib. Verilmiş kreditlərin 3 milyon 458 min 200 manatı və yaxud 14,4 faizi qısamüddətli, 20 milyon 592 min 900 manatı və yaxud 85,6 faizi uzunmüddətli kreditlər olub.

# Erməni siyasətinin “söz taciri”: Paşinyanın Pekin rəzaləti

***Ermənistanın baş naziri Pekində “Bir kəmər, bir yol” layihəsi ilə bağlı keçirilən beynəlxalq foruma dəvət almamışdı. Çünki bu asılı ölkə həmin layihədə iştirak edə bilmir. Lakin tədbirdən sonra N.Paşinyan Çinə səfər edib. O, “Asiya sivilizasiyalarının dialoqu” forumunda iştirak edib. Erməni mediası bu hadisəni şərh etməyə çalışır. Guya N.Paşinyan Ermənistana milyardlarla dollar sərmayə gətirə bilən böyük bir addım atıb. Lakin real vəziyyətin analizi göstərir ki, əslində, N.Paşinyan Pekində növbəti dəfə rəzil oldu. O, yalanları və boş vədləri ilə yadda qaldı. Konkret olaraq, iki ölkə arasında heç bir sənəd imzalanmadı. Bu faktlar çərçivəsində N.Paşinyanın Çin səfərinin geosiyasi aspektləri üzərində bir qədər geniş dayanmaq istərdik.***




## Bir növ adətkardır: söz alverindən yaxa qurtara bilmir

Bir tendensiya artıq dayanıqlı trendə çevrilir: N.Paşinyan Azərbaycan Prezidentindən müstəqil siyasət yürütməyin incəliklərini öyrənməyə çalışır, lakin hər dəfə çox bacarıqsız olduğunu nümayiş etdirir. N.Paşinyan hakimiyyətə gələn gündən müstəqil siyasət adı altında bütün fəaliyyətini İlham Əliyevin atdığı addımların arxasınca sürünmək üzərində qurub. Azərbaycanın dövlət başçısı Rusiyaya səfər edirsə, N.Paşinyan da oraya baş çəkir, Avropa İttifaqına səfərimiz olanda, erməni baş nazir də formal da olsa oralarda görünür və s. Son olaraq N.Paşinyanı Pekində görüblər. Ermənistan rəsmilərinin dediyinə görə, oraya ikigünlük səfərə gedib. N.Paşinyanı Çində keçirilən “Asiya sivilizasiyalarının dialoqu” forumuna dəvət ediblər.

Qəribədir, ermənilərin Asiya sivilizasiyasına nə aidiyyəti var? Axı, Fransa Prezidenti onları “həmyerli” adlandırırdı. Ermənilər də həmişə “qədim və mədəni xalq” kimi özlərini Qərb sivilizasiyasının “yaradıcılarından” biri, xristian kilsələrinin “qədim məkanı” sayırlar. Əslində isə bu kontekstdə Ermənistan deyəndə, konkret olaraq, haranı nəzərdə tutduqları məlum deyil. Çünki danışıqlarından belə çıxır ki, bu qədər “qədim mədəni dəyərlərə” malik olan xalq elə bəşəriyyətin özüdür, yəni dünya Ermənistandır! Maraqlıdır ki, bu absurddan heç N.Paşinyan və onun qulbeçə tarixçiləri və ekspertləri də utanmırlar.

Utansaydılar, eyni abırsızlıqla ermənilərin Asiya sivilizasiyasına bağlılığı haqqında “dövlətçilik tarixində böyük təcrübəsi olan Çində” boş-boş danışmazdılar. Ancaq N.Paşinyan yenə də danışdı. O, Avrasiya İqtisadi İttifaqında (AİI) işləri “yoluna qoyduqdan” və Avropa İttifaqı (Aİ) ölkələrinə “möhtəşəm səfər” etdikdən sonra Çini “fəth” etmək fikrinə düşdü. Bu “fəth”dən cəmi bir neçə gün əvvəl Brüssel müzakirələrində iştirak etmədən aradan çıxmış, o hadisədən cəmi bir neçə gün əvvəl isə Çində keçirilən “Kəmər və yol” forumuna getməmişdi (yəni dəvət etməmişdilər).

N.Paşinyanın siyasətçi kimi real rolu Ermənistanın AİI-dəki durumunda və Aİ ilə münasibətlərin məzmununda açıq ifadə olunub. Üstəlik, İrəvanın müxtəlif beynəlxalq layihələrdə iştirak dərəcəsi, konkret desək, iştiraksızlığı da bu baxımdan maraqlıdır. Bütün bu aspektlərin yekunu belədir: erməni lider hara gedirsə, özü ilə ancaq söz, boş vədlər, saxta tarix aparır və oradan da ancaq söz alıb qayıdır. Onu müasir erməni siyasətinin “söz taciri” adlandırmaq olar. Yeri gəlmişkən, bu xüsusiyyət ona əcdadlarından, o cümlədən özündən əvvəlki Ermənistan rəhbərlərindən qalıb.

N.Paşinyan Pekində bu ampluasından zərrə qədər də kənara çıxmadı. Əvvəlcə Ermənistanın nəyə görə “Bir kəmər, bir yol” forumuna dəvət edilmədiyini izah edə bilmədi. Onun ofisinin rəsmi informasiya yayımında müxtəlif uydurma bəhanələrdən bəhs edilir. Həmin bəhanələr iki qrupa bölünür: birincisi, bütün günahlar N.Paşinyandan əvvəlki rəhbərlərdədir (onlar Dağlıq Qarabağı, ordunu batırdıqları kimi “İpək yolu”nu da batırıblarmış), ikincisi, günahkar “pantürkist” Türkiyə və Azərbaycandır. Erməni rəhbərlərinin necə fəaliyyət göstərdiyi Paşinyanın problemidir. Amma Azərbaycanın “pantürkçülüyü” sən demə işğal altında olan torpaqlarını azad etməkdə “qabarıbmış”! Və bu barədə erməni lider Pekində Asiya sivilizasiyalarının dialoquna həsr edilmiş forumda deyir. Bu qədər qeyri-ciddiliyi yeqin ki, diplomatiya tarixi görməyib.

Türkiyə də “pantürkistdir” ona görə ki, Çində yaşayan uyğurların hüquqlarını qorumağa çalışır. Yəni Azərbaycan və Türkiyə xalqları nə istəyirlərsə, “pantürkizmdir”, ancaq erməni xalqı qədim köklərə malik toplum kimi ancaq əməkdaşlıq və sivil münasibətlər istər. Özü də bu fikri Dağlıq Qarabağda və onun ətrafındakı rayonlarda, Rusiyada və Avropada türklərə və azərbaycanlılara qarşı qanlı terror hadisələri törədən bir kütlənin rəsmi nümayəndəsi deyir. Azərbaycanlılara və türklərə məxsus minlərlə mədəni abidələri, müqəddəs yerləri, ibadətgahları təhqir edən, dağıdan və görünməmiş vəhşilik törədən erməni söyləyir.

## Yola verdilər: nəticəsiz danışıqların real üzü

Bizcə, Çinin dövlət başçısı ümumi halda N.Paşinyanın cavabını verib: “biz erməni xalqının keçdiyi yolları bilirik”. Doğrudur, bundan sonra fəlakətlərin baş verməməsini də diləyib. Ancaq kimsə fəlakətə haqq qazandırmır. Və erməni mediasının təqdim etməyə çalışdığı kimi, bu fikirdə “soyqırımı” nağılı gizlənməyib. Daha çox ermənilərin xislətinə işarələr vardır: hər bir xalq layiq olduğu həyatı yaşayır! Şərq müdrikliyində bu fikrə şübhə etmirlər.

Onun təsdiqlərindən biri də məhz “Bir kəmər, bir yol” layihəsində Ermənistanın iştirak etməməsidir. Pekin ancaq sabit, dayanıqlı iqtisadiyyata malik, potensial imkanları və real resursları olan dövlətlərlə əməkdaşlıq edir. Azərbaycan Cənubi Qafqazda məhz belə bir ölkədir. “Bir kəmər, bir yol” sammiti zamanı Çin çəkinmədən Azərbaycanla 821 milyon dəyəri olan sənədlərə imza atıb. Forumun yekun sənədində konkret olaraq göstərilib ki, Azərbaycan 40-dan çox maliyyələşdirilən layihədə həmin proyekt çərçivəsində iştirak edir. Ermənistanın adı isə cəmi bir dəfə çəkilir: aviareyslər açmaqda!

Ermənilərin arqument kimi gətirməyə çalışdıqları digər fakt - İrəvanda Çinin ən böyük səfirlik binasını tikməsi isə ermənilərin üzqaralığıdır. Çünki Pekin onu Ermənistanın əhəmiyyətli geosiyasi fiqur olmasına görə deyil, Vaşinqtona cavab olaraq tikir. Axı, ABŞ-ın İrəvandakı səfirliyi çox böyükdür və orada 2000-dən çox adam çalışır. ABŞ-ın Ermənistandakı keçmiş səfiri də açıq etiraf etdi ki, bu ölkədə inqilab hərəkatının hazırlanmasında həmin əməkdaşların rolu az olmayıb. Buyurun, indən belə İrəvanın küçələrində at oynadan iki ölkə olacaq - ABŞ və Çin! Rusiya buraya aid deyil, çünki Moskva Ermənistanın ağasıdır, sahibidir və bu mənada həm ABŞ, həm də Çinə qarşıdır.

Bunlar açıq göstərir ki, N.Paşinyanın Çinə heç bir konkret məzmunu olmayan səfəri daha çox formal xarakter daşıyıb və görüntüdən başqa bir şey deyildir. Erməni mətbuatının Ermənistan vətəndaşlarını növbəti dəfə aldatmaq üçündür. Hər hansı real əməkdaşlıq mütləq ən azından iki şərti tələb edir: minimal sərmayə riski və ölkənin real resurslara malik olması. Ermənistanda isə bu şərtlərin heç biri yoxdur. Doğrudanmı Pekin Ermənistanın təcavüzkarlığını görmür? Bu gün erməni təcavüzkarlığına göz yuman hər hansı bir ölkə gələcəkdə çox təəssüflənməli olacaq. Yeni və ədalətli əməkdaşlıq modeli hazırladığını deyən Pekin bu qədər sadəlövh ola bilməz! Yəni Ermənistan təcavüzkarlığından əl çəkməyənə qədər onunla real əməkdaşlıq alınan deyil.

Digər yandan, Çin aydın görür ki, Avropaya gedən yolun Cənubi Qafqaz hissəsində açar ölkə Azərbaycandır. Bu, geosiyasi, siyasi, təhlükəsizlik, nəqliyyat imkanları, logistika, beynəlxalq nüfuz və sair aspektlərdə belədir. Vurğulanan faktorlara görə Azərbaycan kimi qiymətli bir tərəfdaşı Pekin itirə bilərmi? Əlbəttə, yox!

Azərbaycan bu regionda yeganə dövlətdir ki, bütün qonşularla səmərəli əməkdaşlıq edir. O, Rusiya, Türkiyə, İran və Gürcüstanla strateji səviyyədə əlaqələrə malikdir. Çoxlu sayda beynəlxalq layihələrin iştirakçısı və təşəbbüskarıdır. Azərbaycanda artıq “Bir kəmər, bir yol” layihəsinin ruhuna uyğun infrastruktur, o cümlədən tranzit infrastrukturu mövcuddur. Azərbaycana sudan və qurudan rahat çıxışlar var. Məhz bu ölkəyə Qazaxıstandan, Rusiyadan, Türkmənistandan və İrandan asanlıqla və maneəsiz çıxış mövcuddur. Belə bir dövləti təcavüzkar, qondarma, saxta və asılı Ermənistanla əvəz etmək mümkündürmü?!

***Newtimes.az***

# YAP Səbail rayon təşkilatının iclasında qarşıda duran vəzifələr müzakirə edilib



Mayın 21-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının qərargahında rayon partiya təşkilatının qeydiyyatında olan bütün ərazi ilk partiya təşkilatlarının sədrləri ilə geniş tərkibdə iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən təşkilatın sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər, qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq prosesi, eləcə də YAP Səbail rayon təşkilatının qarşısında duran vəzifələr haqqında məlumat verib. Ş.Hacıyev Yeni Azərbaycan Partiyası və Mədəniyyət Nazirliyi arasında imzalanan "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" haqqında məlumat verərək bildirib ki, YAP Səbail rayon təşkilatı bu layihənin kuratoru olaraq Fəaliyyət Planında nəzərdə tutulan istiqamətlər, xüsusən ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi-mədəni abidələrimizin qorunması, habelə vətənpərvərlik ruhunda çoxsaylı tədbirlərin keçirilməsi ilə bağlı fəaliyyətini daha da genişləndirəcək.



Vurğulanıb ki, yaxın günlərdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar YAP Səbail Könüllülər Birliyin üzvlərinin, tələbələrin hazırladığı və ifa etdiyi "Ənəlhəqq" tamaşasının nümayişi nəzərdə tutulur. Tələbələr tərəfindən nəzmlə yazılmış "Ənəlhəqq" tamaşası Nəsiminin həyatı və yaradıcılığına həsr olunub.

İclasda qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb və müvafiq tapşırıqlar verilib.

# "Fuad Abbasovu müdafiə etməli, ona mənəvi dəstək göstərməliyik"



"Müstəqil jurnalist Fuad Abbasovun Rusiyadan deportasiya olunması məsələsinin arxasında bilavasitə anti-Azərbaycan qüvvələrin dayanması şübhəsizdir". SİA xəbər verir ki, bu fikirləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Rusiyada fəaliyyət göstərən azərbaycanlı jurnalist Fuad Abbasovun bu ölkədən deportasiya olunacağı ilə bağlı qərarını şərh edərkən deyib.

Onun sözlərinə görə, Fuad Abbasov jurnalistika fəaliyyəti ilə daim ümumdövlətçilik və milli maraqlar kontekstindən çıxış edib: "Biz, elə də uzağa getməyərək, bir müddət əvvəl azərbaycanlılarla çeçənlər arasında nifaq salmağa çalışan ermənilərin sosial şəbəkə seqmentindəki təxribatlarını xatırlaya bilərik. Həmin vaxt tarixən bir-birinə bağlı olan xalqlarımız arasında düşmənçilik toxumu səpməyə cəhd edən ermənilərin ifşasında Fuadın az işi olmadı. Onun Rusiyada azərbaycanlı və çeçen diaspora nümayəndələrini bir araya gətirməsi, təxribat cəhdinin aradan qaldırılması fəaliyyəti həm bizlər, həm də çeçenlər arasında təqdir olundu. Bununla düşmən ünsürlərin xain planları baş tutmamış qaldı".

Bəhruz Quliyev daha bir nüansa toxunaraq qeyd edib ki, Fuad Abbasovun deportasiyası etimal ki, sifarişlə həyata keçirilir: "Milli maraqlar kontekstindən çıxış edən Fuadın deportasiya olunmasında bəzi xain şəxslərin də erməni lobbisi ilə əlbir olması etimal olunur. Hesab edirəm ki, bu gün həm də bir jurnalist olaraq bizlər Fuad Abbasovu müdafiə etməli, ona mənəvi dəstək göstərməliyik".

*Rövşən NURƏDDİNOĞLU*

## Bakı Şəhər İcra Hakimiyyəti: "Tarqovi"nın bağlanması ilə bağlı məlumatlar həqiqətə uyğun deyil



Bakı Şəhər İcra Hakimiyyəti mayın 25-dən 31-nə qədər "Tarqovi"ya yerli sakinlərin buraxılmaması ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Bununla bağlı icra hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov AZƏRTAC-a açıqlamasında deyib: "Bəyan edirik ki, bu barədə mətbuatda verilən məlumatlar həqiqətə uyğun deyil və hər hansı məhdudiyyət tətbiq edilməyib. Belə məlumatlar şəbəkə təxribatı xarakteri daşıyır. Futbol kütlələrin baxdığı, azarkeşlik etdiyi oyunudur. Onu hamı sevir və hər hansı məhdudiyyət yol verilməzdir. Əksinə həmin gün şəhərdə bayram əhval-ruhiyyəsi hökm sürəcək, müxtəlif tədbirlər keçiriləcək".

# Azərbaycana gələn turistlərin sayı ilbəil artmaqdadır

***Son illər respublikamızda turizm sahəsində dövlət tərəfindən görülən işlər ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınmasına, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkilinə, hüquqi-normativ aktların qəbul edilməsinə müsbət təsirini göstərib. Turizm sahəsində orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının turizm sahəsi üzrə bəndlərinin tələbləri çərçivəsində sahibkarlığın inkişafı üçün müvafiq kreditlərin ayrılması, turizm obyektlərinin inşasının dəstəklənməsi və bir sıra hüquqi sənədlərin hazırlanması turizmin inkişafına geniş imkanlar açıb.***



Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması məlum dövlət proqramları əsasında davamlı olaraq həyata keçirilir. Müxtəlif turizm sahələri üzrə infrastrukturun yenilənməsi və yaradılması xarici turistlərin respublikamıza marağını artırıb. Bu da, öz növbəsində, iqtisadiyyata, bilavasitə müsbət təsirini göstərir. Ölkəmizdə uğurla keçirilən müxtəlif tədbirlər də, Azərbaycanın turizm imkanlarının, geniş məkanda tanınmasına böyük yollar açıb. Tədbirlər çərçivəsində ölkəmizə dünyanın müxtəlif ölkəsindən gələn qonaqlar Azərbaycanın gözəllikləri ilə tanış olur və müasir tələblər səviyyəsində qurulmuş otellərdə istirahət edirlər.

**CARİ İLİN DÖRD AYI ƏRİZİNDƏ, AZƏRBAYCANA DÜNYANIN 170 ÖLKƏSİNDƏN 848,4 MİN ƏCNƏBİ VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXS GƏLİB**

Görülən işlərin məntiqi nəticəsi olaraq, bu ilin dörd ayında uğurlu göstəricilər əldə olunub. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını çoxalıb. Əlverişli iqlim şəraiti, coğrafi mövqeyi, qədim tarixi abidələri, zəngin fauna və florası ilə seçilən Azərbaycan rayonlarında turistlərin axınında artım müşahidə olunub. Bu ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 170 ölkəsindən 848,4 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu da, 2018-ci ilin yanvar-aprel ayları ilə müqayisədə 0,1 faiz çox turistin gəlməsindən xəbər verir. Statistik məlumata əsasən, gələnlərin 27,3 faizi Rusiya Federasiyası, 26,8 faizi Gürcüstan, 11,1 faizi Türkiyə, 8 faizi İran, 3,8 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,8 faiz olmaqla, Ukrayna və Hindistan, 1,4 faizi Pakistan, 1,3 faizi İraq, 16,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Ölkəmizə yanvar-aprel aylarında gələnlərin sayında daha çox artım Misir (2,2 dəfə), Səudiyyə Ərəbistanı (1,9 dəfə), Hindistan (1,8 dəfə), Türkmənistan (1,8 dəfə), Çin (1,6 dəfə), Yaponiya (37,1 faiz), Kanada (31,8 faiz), Pakistan (28,8 faiz), Gürcüstan (22,6 faiz) və Cənubi Koreya (20,5 faiz) vətəndaşları arasında qeydə alınıb. Bunların arasında Baltikyanı ölkələr və Polşadan gələnlərin də, statistik göstəricilərə əsasən, sayı kifayət qədərdir. Belə ki, cari ilin 3 ayında Polşadan Azərbaycana 649, Latviyadan 325, Litvadan 345, Estoniyadan isə 141 turist gəlib.

Bütün bunlar göstərir ki, Azərbaycanda turizm sektoru dünya standartlarına uyğun qurulub, ölkəmizin əlverişli iqlimi, sabitliyin, təhlükəsizliyin mövcudluğu turistlər üçün buranı ən əlverişli bir məkana olaraq cəlbedici edib. Hər bir Azərbaycan rayonunun özünəməxsusluğu xarici turistləri bu və ya digər məkanlara cəlb edir. Rayonlarda tarix-mədəniyyət abidələri, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, müasir tələblərə cavab verən mehmanxanaların və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına öz təsirini göstərir. Təbii ki, turist axınının artması iqtisadi inkişafa, insanların həyat tərzinin yaxşılaşmasına böyük təsir göstərən amillərdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycana qarşı başladılan qərəz kampaniyası uğursuz nəticələnəcək!

*BMM-də "Media müstəvisində siyasət" mövzusunda tədbir keçirilib*

**Dünən BMM-də media müstəvisində siyasət mövzusunda tədbir keçirilib. Tədbirdə ölkənin tanınmış media nümayəndələri, baş redaktorlar və vətəndaş cəmiyyəti təmsilçiləri iştirak ediblər.**




Tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Bakıda İngiltərənin "Çelsi" və "Arsenal" futbol klublarının UEFA finalı çərçivəsində keçiriləcək oyunları ərəfəsində Britaniya XİN-in vətəndaşlarına, eləcə də, bu oyunu izləmək marağında olan digər xarici ölkə vətəndaşlarına qərəz xarakterli xəbərdarlıq etməsi heç bir məntiqə sığmayan bir haldır: "Brtitaniya mətbuatı, xüsusilə, "The Guardian" və s. qəzetlər bu xəbərdarlığı dərhal ictimailəşdirərək, Azərbaycana qarşı qarayaxma kampaniyasına qoşuldular və bu, bizlərdə çox təəssüf hissi doğurur". MŞ-nin sədri qeyd edib ki, iddialar arasında mehmanxanalarda, istirahət-əyləncə komplekslərində, iaşə obyektlərində guya problemlərin olacağı, qiymətlərin bahalığı barədə bildirilir, halbuki bütün bu iddiaların hər biri əsassız və qərəz xarakterlidir.

Ə.Amaşov əlavə edib ki, erməni əsilli Mxitryanın da Bakıya gəlişi ilə bağlı heç bir problem yoxdur və müvafiq dövlət qurumları onun üçün heç bir təhlükə olmayacağını bəyan ediblər: "Belə olan halda, bu cür qərəzli yanaşmalar, xüsusilə, Britaniya mətbuatının belə məsələlərdə rol alması onların qeyri-ciddi yanaşma etmələrindən xəbər verir".

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu isə öz çıxışında qeyd etdi ki, bu tədbirin keçirilməsi əhəmiyyətlidir. "Hətta bu tədbiri media savaşı da adlandırmaq olar" deyə qeyd edən H.Babaoğlunun sözlərinə görə, Azərbaycanda keçirilən hər bir belə böyük tədbirlər ərəfəsində müəyyən qüvvələr öz çirkin kampaniyalarına start verirlər. Baş redaktor, Britaniya XİN-in və mediasının qərəzli münasibətindən sonra araşdırma apardığını deyib və bildirib ki, bu gün Londonla Bakını müqayisə etsək, Britaniyanın paytaxtında müxtəlif cinayətlərin sayı Bakıdan 10 dəfə çoxdur. "Belə olan halda, nəyə görə Britaniyanın xarici işlər idarəsi və eyni zamanda, mətbuatı həmin faktları araşdırmırlar və bunun əvəzinə, Azərbaycana qarşı qeyri-ciddi kampaniyaya başlayırlar" deyə qeyd edən H.Babaoğlu əlavə edib ki, Ermənistan mənşəli futbolçu Henrix Mxitryanın guya Azərbaycana buraxılmayacağı, yaxud həyatına təhlükənin yarana biləcəyi ilə bağlı iddiaların səslənməsi heç bir məntiqə sığmır: "Azərbaycan dövlətinin müvafiq strukturları, rəsmi bəyanat yayıblar ki, ingilis futbolçularının hər biri qorunacaq və onların həyatlarına heç bir təhlükə olmayacaq. Yaxşı olardı ki, Britaniya mətbuatı Londonda şiddət, ağır cinayət halları, dələduzluq faktları barədə tədbirlər görüb, oraya səfər edən turistlərin təhlükəsizlikləri barədə ölçülər götürsünlər. Bir zamanlar ən çox cinayət törədilən şəhər Nyu-York idisə, artıq London bu şəhəri cinayət hallarına görə ötüb və birinci yerdə qərarlaşıb".

Baş redaktor hesab edir ki, Bakıda akkreditə olunmuş Britaniya polisləri, eləcə də, səfirliyin nümayəndələri anlamalıdırlar ki, əgər hər hansı bir arzuolunmaz hadisə baş verərsə, burada əsas məsuliyyəti onların özləri daşıyacaqlar".

"Gündəlik Teleqraf"ın baş redaktoru Aynur Camalqızı, qeyd edib ki, Britaniya XİN-in qərəzli xəbərdarlıq yaymaları, vətəndaşlarına müəyyən tövsiyələr vermələri arxasında böhtan və qərəz dayanıb. "Bakının gecələr qaranlıq olması və s. barədə iddiaları səsləndirən britaniyalılar gecələr Londonun küçələrində yarıqaranlıq yerlərin olduğunu xatırlamalıdırlar" deyə çıxışlarda bildirilib və əlavə edilib ki, Azərbaycanda multikultural və tolerantlıq dəyərləri daim digər ölkələrə örnək olub və heç bir xarici turist burada ona qarşı biganəliyin olacağını iddia edə bilməz.

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə, öz növbəsində, bildirib ki, Azərbaycanda, Bakıda yaşayan, çalışan Britaniya vətəndaşları yaxşı olardı ki, öz hökumətlərinə, müvafiq qurumlarına etirazlarını bildirsinlər. "Azərbaycanda BP və s. çoxsaylı Britaniya şirkətləri işləyir və uzun illərdir ki, buradadırlar. Burada olduqları müddətcə, onlara qarşı heç bir cinayət hadisələri, dələduzluq halları baş verməyib və istədikləri şəkildə əylənir, gecə barlarında, restoranlarda istirahət edirlər" deyə qeyd edən baş redaktor onu da bildirib ki, görünür, Britaniya XİN-i və ingilis mediası öz futbol azarkeşlərinin oyunlardan sonra nə qədər məsuliyyətsiz olduqlarını bildikləri üçün, bu vasitə ilə özlərini, bəri başdan sığortalayırlar.

Tədbirdə çıxış edən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirdi ki, bu kimi hallar Azərbaycana qarşı birinci dəfə baş vermir və hər kəs bunu daha öncəki böyük idman turnirlərində, I Avropa Olimpiya Oyunlarında və s. mühüm tədbirlərdə müşahidə edib. "Burada məqsədli şəkildə qərəz və böhtan kampaniyaları aparılır və bu kampaniyaların arxasında erməni lobbisi, anti-Azərbaycan dairələri dayanır" deyən baş redaktor əlavə edib ki, bütün bunlar sistemləşdirilmiş şəkildə həyata keçirilir. "Belə hallara qarşı sağlam düşüncəli cəmiyyətimiz qətiyyətli mövqe sərgiləməlidir" deyən V.Rəhimzadə bu cür qərəzlərin heç vaxt öz təsdiqini tapmayacağını vurğulayıb.

KİVDF-nin icraçı direktoru Vüqar Səfərli qeyd etdi ki, istər I Avropa Oyunları, istərsə də digər böyük tədbirlər keçirilməmişdən öncə, Azərbaycana qarşı çıxış edən şantajı, qərəzli qüvvələr hər zaman canfəşanlıq göstəriblər, lakin onların cəhdləri daim uğursuzluqla nəticəsini tapıb. "Bu baxımdan, bəlli siyasi dairələrin belə cəhdləri, ona görə baş tutmur ki, ortada yalan və böhtanlar var. Azərbaycan dövləti və xalqı hər zaman belə münasibətlərə qarşı qətiyyətli mövqeyini sərgiləyərək, yalnız uğurlara imza atıb" deyə qeyd edən KİVDF-nin icraçı direktoru əlavə edib ki, hər bir media nümayəndəsi belə hallarda ayıqlığını və sayıqlığını qorumalı, təxribatçı və qərəzli halların qarşısını almağa hazır olmalıdır.

Mətbuat Şurasının idarə heyətinin üzvü Azər Həsrət, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və sairləri də çıxışlarında vurğuladılar ki, Britaniya XİN-in və bir sıra mətbuat səhifələrinin Bakıda ingilis klubları arasında baş tutacaq UEFA finalı öncəsi başlatdıqları qarayaxma kampaniyaları heç bir ciddiyyəti təşkil etmir və bu kimi uğursuz cəhdlər nəticəsiz qalacaq.

**Rövşən NURƏDDİNOĞLU**



# "Sərhəd" hərbi-idman oyununun final mərhələsinin açılışı olub

**Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Lənkəran sərhəd dəstəsində Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş "Sərhəd" hərbi-idman oyununun Respublika birinciliyinin final mərhələsinin təntənəli açılış mərasimi keçirilib.**

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, mərasimdən öncə yarış iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsini ziyarət etmiş, Heydər Əliyev Mərkəzində Ulu Öndərin nəsillərə nümunə həyat və fəaliyyətini əks etdirən zəngin eksponatlarla tanış olublar.

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi ərəfəsində keçirilən tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən müasir standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanıb.

Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə tədbirlər planı əsasında hər il ənənəvi olaraq keçirilən "Sərhəd" hərbi-idman oyunlarının gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında, mənəvi və fiziki cəhətdən saglam gənclərimizin yetişdirilməsində, onlarda Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında və sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynadığı xüsusi olaraq vurğulanıb.

Üç mərhələdə keçirilən "Sərhəd" hərbi-idman oyununlarında bu il respublikamızın 36 rayonunun 207 məktəbindən 1035 şagird qatılmışdır. İlk iki mərhələnin yekunlarına görə 10 komanda Naxçıvan şəhərinin 9 №-li tam orta məktəbinin, Astara şəhərinin 2 №-li tam orta məktəbinin, Mingəçevir şəhərinin İ.Qayibov adına 10 №-li tam orta məktəbinin, Siyəzən şəhərinin 1 №-li tam orta məktəbinin, Beyləqan rayonunun Arza qəsəbəsinin F.Miriyev adına tam orta məktəbinin, Cəlilabad rayonunun Ləkin kəndinin tam orta məktəbinin, Xaçmaz rayonunun Gödəkli kəndinin tam orta məktəbinin, Oğuz rayonunun Muxas kəndinin tam orta məktəbinin, Zaqatala rayonunun Muğanlı kəndinin tam orta məktəbinin, Şəmkir rayonu Çaparlı kəndinin tam orta məktəbinin komandaları finala vəsiqə qazanıblar.

"Sərhəd" hərbi-idman oyununun final mərhələsində komandalar "Sərhəd pozucusunun yaxalanması və onun təxliyyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə oluinması", "Avtomatın sökülməsi və yığılması", "Tüfəngdən hədəfə atəş açmaq" və "Sıra hazırlığı" üzrə öz bilik və bacarıqlarını nümayiş etdirəcəklər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olacaq, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil olunacaq, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışlarına keçiriləcək.

## Azərbaycan-Böyük Britaniya Hökumətlərarası Komissiyanın iclası və enerji forumu keçiriləcək

Mayın 22-də Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçiriləcək. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi və ticari əlaqələrin mövcud vəziyyəti, komissiyanın 2-ci iclasından sonrakı dövrdə görülmüş işlər və əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə ediləcək.

Birgə Hökumətlərarası Komissiyanın həmsədrləri Azərbaycan tərəfdən Energetika naziri Pərviz Şahbazov, Böyük Britaniya tərəfdən isə Ticarət Siyasəti üzrə dövlət naziri Corc Hollinqberidir. Hökumətlərarası Komissiyanın 3-cü iclası çərçivəsində Azərbaycan-Böyük Britaniya enerji forumu da keçiriləcək. Forumda P.Şahbazovun çıxışı, neft-qaz sektorunun, bərpaolunan enerji sahəsinin inkişafı, eləcə də Azərbaycanda enerji islahatlarına dair təqdimatlar nəzərdə tutulub.

# “ASAN Xidmət” mərkəzlərinin sayı artır

*Dövlət başçısının Sərəncamı ilə Kürdəmir rayonunda “ASAN Xidmət” Mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə dövlət büdcəsindən 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manat ayrılıb*

***Bu gün ölkəmizdə aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatının firəvanlığına yönəlib. Milyonlarla insanın müraciət etdiyi “ASAN Xidmət”də, məhz bürokratiyasız, korrupsiyasız rahat xidmətlər həyata keçirilir. “ASAN Xidmət” mərkəzlərində vətəndaşlara operativlik, şəffaflıq və məsuliyyət prinsipləri əsasında müasir tələblərə cavab verən xidmətlərin göstərilməsi sayəsində yüksək vətəndaş məmnunluğuna nail olunub.***



Ölkə əhalisinin dövlət xidmətlərini və özəl xidmətləri vahid məkanda əldə etməsinin daha da genişləndirilməsi və xidmət şəbəkəsinin bütün respublika ərazisini əhatə etməsi məqsədilə bu günədək paytaxtda, eləcə də digər şəhər və rayonlarda on beş “ASAN Xidmət” Mərkəzi yaradılıb. Onlardan 5-i paytaxt Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bundan başqa, regionlarda 10 səyyar “ASAN Xidmət” avtobusu və səyyar “ASAN Qatar” vasitəsilə vətəndaşlara səyyar formada xidmətlər göstərilir.

Bu gün ölkəmizdə mərkəzlərin sayı artmaqdadır. 2019-cu ilin sonunadək daha beş mərkəzin istifadəyə verilməsi nəzərdə tutulub. Gündəlik müraciət sayı 30 minə yaxın olan “ASAN Xidmət” mərkəzlərində indiyədək 29 milyondan çox müraciət qəbul edilib.

Bu sahədə işlərin davam etdirilməsinin əhəmiyyətini, habelə, “ASAN Xidmət” mərkəzlərinə müraciətlərin sayının artması ilə bağlı yeni “ASAN Xidmət” mərkəzlərinin yaradılmasının zəruriliyi meydana çıxır. Cənab Prezidentin Kürdəmir rayonunda “ASAN Xidmət” Mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında 20 may tarixli Sərəncamı bu sahədə görülən işlərin davamıdır. Sərəncama əsasən, Kürdəmir rayonunda “ASAN Xidmət” Mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

Həyata keçirilən islahatlar, layihələr nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilir. Görülən işlərə Azərbaycanın, bütövlükdə, dinamik inkişafı imkan verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İlqar Məmmədov, bu, yaramazlıqdır...



***Bakıda keçiriləcək Avropa liqasının final mərhələsinin tarixi yaxınlaşdıqca Azərbaycana qarşı xaricdən və daxildən əsassız hücumlar artır. Ən diqqətçəkən məqam odur ki, anti-Azərbaycan qüvvələr heç bir əsası olmayan, reallıqdan uzaq iddialar irəli sürür, bunu xüsusilə sosial şəbəkələr üzərindən tirajlamaqla Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa cəhd edirlər.***

Bakı UEFA finalına hazırlaşan vaxt “Nizami (Tarqovı) və İstiqlaliyyət küçələrinə girişin məhdudlaşdırılacağı” iddiası ortaya atıldı. Bu iddianın özlüyündə absurd olduğu ortadadır: turistlərin ən çox axın edəcəyi küçələr niyə bağlanmalıdır?!

Bakı meriyası rəsmi şəkildə iddianı təkzib etdi və bəyan etdi ki, “Belə məlumatlar təxribat xarakteri daşıyır. Futbol kütlələrin baxdığı, azarkeşlik etdiyi oyunudur. Onu hamı sevir və hər hansı məhdudiyyət yol verilməzdir, əksinə həmin gün şəhərdə bayram əhval-ruhiyyəsi hökm sürəcək, müxtəlif tədbirlər keçiriləcəkdir”.

Düz məntiq də reallığın belə olduğunu təsdiqləyir. Dünyanın baxdığı futbol yarışının Bakıda keçiriləcəyi gün mərkəzi küçələrə məhdudiyyətlərin qoyulmasını demək üçün ya məntiqsiz olmalısan, ya da öz ölkənə qarşı törədilən təxribatın bir parçası olacaq qədər yaramaz...

REAL sədri İlqar Məmmədovun irəli sürdüyü iddialar yumşaq desək, yaramazlıqdır. Məmmədov iddia edir ki, keçiriləcək oyuna görə hakimiyyət İstiqlaliyyət küçəsinə girişi qadağan edib, halbuki, REAL 28 mayda bu küçədə yerləşən İstiqlaliyyət abidəsini ziyarət etməklə bağlı qərar qəbul etmişdi. Daha sonra o, “bu biabırçılıqla bağlı sabah UEFA videomüraciət edəcəm” deyə bildirir.

Və bu adam, hakimiyyətə iddia edən, özünü siyasi lider kimi irəli sürən bu adam heç bir dəqiqləşdirmə aparmadan, sosial şəbəkələrdə ortaya atılan hansısa iddiaya istinadən belə çıxış edir. Bu, onun birinci biabırçılığıdır.

İkinci biabırçılığı odur ki, Məmmədov iddiasını “sanki hakimiyyət məhz REAL-ın qərarından sonra onların abidəyə girişinin qarşısını almaq üçün küçəni bağlayıb” deyə təqdim edir. Və sanki REAL o qədər güclü siyasi qüvvədir ki, onun qarşısını almaq üçün belə bir addım atılır. Reallıq REAL-ın tam əksinədir, sadəcə olaraq, Məmmədov bununla özünüreklam kampaniyasına keçib və bu kampaniyanı UEFA-nın final oyunu ərəfəsində etməklə daha çox diqqət çəkmək istəyir.

Bu da onun üçüncü biabırçılığıdır ki, ucuz reklam xatirinə öz ölkəsindən belə “donos” yazmağa hazırdır. Özünə siyasətçi deyən biri üçün üç biabırçılıq onun haqqında təsəvvür yaratmağa imkan verir.

Hərçənd, məsələ təkcə bununla bitmir. Proseslərin inkişafı, final oyunu ərəfəsində Azərbaycana qarşı oynanılan oyunlar təsdiqləyir ki, REAL sədri anti-Azərbaycan qüvvələrin planlarında yer alır, yaxud da almağa çalışır. Analoji yanaşma adətən AXCP sədri Əli Kərimlinin “kurasiyasındadır”. REAL sədrinin də bu prosesə qoşulması ortada “kimin daha yaxşı “donos” yazması” davasının getdiyinə dəlalət edir. Halbuki, bu şəxslərin “hakimiyyət” adı altında hədəf seçdiyi Azərbaycan dövlətidir.

UEFA final oyununun Bakıda keçirilməsi haqqında qərar qəbul edərkən, bunu hakimiyyətə görə yox, Azərbaycan adlı bu məmləkətə görə etmişdi.

“Arsenal” və “Çelsi” Azərbaycanın paytaxtında yarışacaq, X şəhərdə deyil. Oyunu izləməyə gələnlər X ölkəyə yox, Azərbaycana gələcək. Dünya Azərbaycanı tanıyacaq, final matçının Bakıda keçirilməsinə görə siyasi, iqtisadi və s. olmaqla nə xeyir gəlsə, bu ölkəyə gələcək. Dünyanın diqqətinin yönəldiyi vaxt öz ölkəni ləkələmək isə nə vətəndaşlığa, nə də siyasətçiliyə yaraşan deyil. Viktor Hüqonun gözəl bir sözü var: “Vətənini rüsvay etmək ona xəyanət etmək deməkdir”. Buyurun, görək “xəyanət yarışında” kim özünün mahiyyətini daha çox ortaya qoyacaq...

***Asif NƏRİMANLI***

# “Paşinyanın “Şuşa yallısı” əks-inqilabı rəsmiləşdirdi”

***Ermənistanın Baş naziri N.Paşinyan mayın 9-da Şuşanın işğalının qeyd olunması tədbirlərində iştirak etdi. Onun bu tədbirdə iştirakı bir sıra parametrlər üzrə Ermənistanın əvvəlki rəhbərlərinin iştirakından fərqlənirdi”. Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.***

Politoloq qeyd edib ki, Nikol Paşinyan mayın 8-də deyil, mayın 9-da Dağlıq Qarabağa gəldi: “Mayın 8-də o, özünün hakimiyyətə gəlməsinin 1 illiyi ilə əlaqədar Yerevanda mətbuat konfransı keçirdi. Ermənilər üçün mayın 8-də Şuşada olmaq prinsipial məsələdir. N.Paşinyan həyat yoldaşı və 3 qızı ilə gəlmişdi və Dağlıq Qarabağda hərbi xidmətdə olan oğlu Aşot onu aeroportda qarşılayanlar sırasında idi. N.Paşinyan daha çox ailəvi olaraq oğluna baş çəkməyə gəlmişdi. N.Paşinyan Dağlıq Qarabağa gəlməzdən əvvəl artıq qondarma qurumun separatçı rəhbəri B.Saakyan və onun ekshəmkarı A.Qukasyan Yerevanda



həbsxanada olan qondarma qurumun separatçı eks-rəhbəri və Ermənistanın eks-prezidenti R.Köçəryanın zaminə buraxılması ilə bağlı Ermənistan prokurorluğuna müraciət etmişdi. Burada hüquqisiyasi nüanslar çoxdur. Ən azı bu bir daha göstərdi ki, Dağlıq Qarabağ özünü Ermənistanın tərkib hissəsi kimi hiss edir və yaxud Ermənistan Dağlıq Qarabağın idarəedicisi kimi qəbul edilir”.

M.Əhmədoğlu bildirib ki, N.Paşinyanın qondarma qurumun 2 qondarma qurumun separatçı rəhbərinin bu müraciətinə münasibəti də artıq kifayət qədər əlavə siyasi nüans yaratdı: “Paşinyan üçün maraqlıdır ki, niyə görə Dağlıq Qarabağın qondarma rəhbəri Manvel Qriqoryanın deyil, R.Köçəryanın həbsdən azad olunmasını istəyirlər. M.Qriqoryan da Dağlıq Qarabağ uğrunda döyüşüb və indi də hal-hazırda həbsdədir. Əslində ermənistanlı və qarabağlı bölgüsü demək olar ki, yeni çalarını məhz bu andan etibarən aldı. Çünki Qarabağ klanın fikrincə, M.Qriqoryan qarabağlı deyil. M.Qriqoryan da elə N.Paşinyan kimi Levon Ter-Petrosyanın tərəfdarlarından biridir. Ter-Petrosyanın 2 ardıcılı öz aralarında hansısa məsələni çözə bilməyiblər. İndi Paşinyan M.Qriqoryandan onun qisasını alır. R.Köçəryandan N.Paşinyanın qisas alması isə onun məhz qarabağlı olduğu üçündür.

N.Paşinyan rəsmi tədbirlərdən daha çox qeyri rəsmi tədbirlərə meyllidir, ona görə də onun tədbirlərə qatılmasını Şuşada “Yallı” rəqsi ilə xarakterizə etdilər. N.Paşinyan eynəyini mühafizəsinə verərək sanki “Yallı” gedənlərə ehtiraslı şəkildə hücum çəkdi. Bu N.Paşinyanın qeyri-ciddi və ya yüngül əxlaqlı adam imicini formalaşdırdı.

V.Dağlıq Qarabağın “Təhlükəsizlik şurasının rəhbəri” S.Balasanyanın N.Paşinyanı publik ələ salması da diqqəti çəkir.

Ümumiləşdirməni isə N.Paşinyan Dağlıq Qarabağdan Yerevana qayıtdıqdan sonra verdi. O, bildirdi ki, Dağlıq Qarabağda kimlərsə əks-inqilab etmək istəyirlər, amma əks-inqilabı beşiyindəcə inqilaba çevirəcəkdir. Reallıqda isə bu artıq mümkün deyil. Mayın 8-də 1 illiyini qeyd edən N.Paşinyan üçün mayın 9-dan etibarən zamanın əksinə sayılması başlandı. R.Köçəryan zaminə buraxıldı. N.Paşinyanın R.Köçəryanı yenidən həbs etdirməsi mümkündür. Ermənistan prokurorluğu məhkəmənin R.Köçəryanın azadlığa buraxma qərarından şikayət verib. Amma N.Paşinyanın Dağlıq Qarabağ məsələsindəki qeyri-müəyyənliyi Dağlıq Qarabağ tənzimlənməsinin tərəfdarları arasında onun dəstəyini azaldır, ekstremistlərin arasında ona düşmənçiliyi artırır.

N.Paşinyan üçün geriyə sayım başladı. Bu geriyə sayım Ermənistanda, o cümədən Dağlıq Qarabağ erməniləri arasında xaosla xarakterizə olunacaq. Dünyanın daha yaxşı vaxtında ermənilər dövlət qura bilmədilər. Növbəti xaos mərhələsində isə ermənilərin dövlətlərini qoruyub saxlayacaqları çox ciddi şübhə altındadır. Bəlkə də N.Paşinyanın qarşısındakı missiya Ermənistan dövlətçiliyini dağıtmaqdır”.

# Yerevanda gərginlik yenidən artır

## Ermənistanın sabiq prezidenti Robert Koçaryanın azadlığa buraxılması Paşinyanı qorxuya salıb

***Ermənistanın sabiq prezidenti Robent Koçaryanın azadlığa buraxılması erməni xalqının etirazına səbəb olub. Məsələ ondadır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın istəyinin əksinə olaraq, Yerevanın birinci instansiya məhkəməsi R.Koçaryanı həbsdən azad edib. Paşinyan isə Koçaryanı neytrallaşdırmaq üçün onu həbsdə saxlamağı düşünsə də, bu istək həyata keçməyib.***



Daha öncə, Qarabağ separatçılarının lideri Bako Saakyan və onun sələfi Arkadi Qukasyan birbaşa məhkəmə zalında zəmanət verərək, hərəsi 500 min dram və ya təxminən 1000 dollardan bir az çox təzminat ödəyiblər. Məhkəmə binasının qarşısına Ermənistanın eks-prezidentinin tərəfdarları və əleyhdarları toplaşıblar. Tərəfdarlar məhkəmənin qərarı ilə bağlı sevinclərini ifadə ediblər.

### Paşinyan yenə də xalqı küçələrə çıxmağa çağırıb

Xatırladaq ki, keçmiş prezidentin həbsdən azad edilməsinə etiraz edən Paşinyan, xalqı küçələrə çıxmağa çağırıb. O, ölkədə inqilabın ikinci mərhələsinin başladığını bildirib. Paşinyanın tərəfdarları onun çağırışı ilə paytaxt Yerevanda bütün məhkəmələrin giriş-çıxışlarını bağlayıblar. Etirazçılar tərəfindən Konstitusiya Məhkəməsinə heç kim buraxılmayıb. Şenqavit dairə Məhkəməsinin hakimi David Balayan binaya pəncərədən daxil olmaq istəsə də, onu itələyərək, içəri girməsinə imkan verməyiblər.

İctimai fəal Ruben Melikyan nümayişçilərin məhkəmə binalarının şüşələrini sındırdığını bildirib: "Paşinyanın müraciəti əsasında toplaşan əhali artıq məhkəmə binasının şüşələrini sındırıb və hakimlərin işinə mane olublar. Polis əməkdaşları isə, heç bir tədbir görmür".

### Arman Tatoyan: "Paşinyan Ermənistanın prezidenti yox, düşmənidir"

Ermənistanın Ombudsman Aparatının rəhbəri Arman Tatoyan isə, bildirib ki, Paşinyan ölkədə bu gərginliyi yaratmaqla erməni xalqının düşməni olduğunu göstərir: "Respublikanın bütün məhkəmələrinin giriş və çıxışlarına maneə yaratmaq barədə Ermənistan baş nazirinin çağırışı, bəyanatı ölkənin hüquq sisteminin təhlükəsizliyi və sabitliyi üçün son dərəcə təhlükəlidir".

A.Tatoyan Nikol Paşinyanın bu çağırışını məhkəmələrin işinə müdaxilə adlandırıb və onu ölkədə sabitliyi pozmaqda ittiham edib: "Mən Ermənistan vətəndaşlarını məhkəmələrin binalarını bloklayan tədbirlərdən çəkinməyə çağırıram, əks-halda hansısa bir gərginliyin baş verəcəyini istisna etməməliyik. Sosial şəbəkələrin monitorinqi göstərir ki, vətəndaşlar bir-birlərinə qarşı ən yüksək dərəcədə dözümsüzlük nümayiş etdirirlər, bir-birlərini təhqir və təhdid edirlər. Bu, ölkənin insan haqlarının müdafiəsi baxımından təhlükəlidir".

Paşinyan isə, bütün bunlara rəğmən, ölkədə fəaliyyət göstərən məhkəmələrin binalarına girişin bağlanılması fikrindən imtina etməyib: "Xalqım, utancaq olma! Evdən çıxarkən çətirləri unutma, hamınızı sevirəm". Baş nazir Yerevanda öz tərəfdarları qarşısında bildirib ki, 2016-cı ilin aprel müharibəsi ilə bağlı bütün xüsusatları araşdırmaq üçün parlament komissiyası yaratmağın vaxtı çatıb".

Qeyd edib ki, əvvəlki korrupsioner-kriminal rejimdən daha çox Dağlıq Qarabağ erməniləri zərər çəkib: "İndi isə, bu korrupsioner sistemin bəzi nümayəndələri öz şəxsi əlaqələrindən istifadə edib Ermənistan hökumətinə və baş nazirinə qarşı təbliğat qurublar. Bütün faktları araşdıraraq, mən bunun arxasında yeni müharibə başlatmağa və hətta ola bilsin, Qarabağı Azərbaycana verməyə hesablanmış qəsd planının dayandığını görürəm. Bu fəaliyyəti dövlətə xəyanətə bənzədirəm və baş nazir kimi həmin qəsd planının qarşısını almaq üçün ən sərt tədbirlər görəcəyəm". Daha sonra Paşinyan yenidən canlı yayımda xalq qarşısında çıxış edərək, bir daha inqilabın ikinci mərhələsini elan edib.

Ermənistan prezidenti Armen Sarkisyan ölkədə məhkəmələrə girişin bağlanılması ilə bağlı fövqəladə bəyanat verib. Dövlət başçısı insanları sakitləşməyə və konstitusiyaya hörmət etməyə çağırıb. O, məhkəmələrin şəffaf fəaliyyət göstərməsinin vacib olduğunu da deyib.

Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin rəhbəri Georgi Vanyan bildirib ki, Koçaryanın azadlığa çıxması bir bəhanədir. Əsas səbəb zaman-zaman suveren Azərbaycanın qanunsuz olaraq torpaqlarının işğal olunmasıdır.

### Erməni siyasətçiləri işğalçı olduqlarını etiraz etmirlər

Georgi Vanyan, həmçinin, məsələnin həllində Azərbaycan dövlətinin siyasətinin uğurlu olduğunu söyləyib: "Ermənistan hakimiyyətinin iddiaları əsassızdır. İşğal olunmuş ərazilər suveren Azərbaycanın torpaqlarıdır və qeyri-qanuni yolla "qurulmuş" qondarma rejimin nəzarətindəki torpaqlar BMT tərəfindən tanınan Azərbaycan Respublikasının ərazisidir. Bu ərazilərin işğalında Robert Koçaryan və Sarkisyanın cəlladlığını erməni xalqı qəbul etmir".

Məhz bu səbədən də, Ermənistanda politoloqlar və siyasi şərhçilər sabiq ölkə prezidenti Robert Koçaryanın azadlığa buraxılmasını həm təqdir ediblər, həm də "köhnə hakimiyyətin təzyiqinin hələ də mövcud olduğunu" iddia edərək, etiraz ediblər. Bəziləri isə hadisəni "Moskva amili" ilə əlaqələndiriblər.

### Paşinyan yeni imtahanla üz-üzə

Siyasi ekspertlərin sözlərinə görə, Robert Koçaryanın həbsi məsələsi Ermənistan üçün, adi hadisə olmadığı kimi, zaminə buraxılması da sıradan bir hadisə deyil. 2008-ci il martın 1-də baş vermiş hadisələrlə bağlı 2018-ci il iyulun 27-də onun barəsində həbs qətimkan tədbiri seçilib. Onda bu hadisə Rusiya-Ermənistan münasibətlərinin daha da gərginləşməsinə təsir göstərdi.

Başqa sözlə, Nikol Paşinyan hökumətinin bu addımı Ermənistanın xarici siyasi kursu üçün təyinedici və istiqamətverici hadisə də sayıla bilərdi. Elə buna görə də, yeni hakim elitanın, Kremldən qaçan qüvvə kimi təqdim edilməsi təsadüfi deyildi.

Bu baxımdan, ədliyyə sistemində də başıpozuqluğun qarşısını almaq üçün Paşinyan ölkə vətəndaşlarını aksiyaya çağırıb. Bu sahədə islahatların aparılmaması bir il əvvəl başlamış proseslərin dayanmasına və ya qurulan yeni idarəetmə sisteminin dağılmasına, nəhayət, Paşinyan hökumətinin iflasına səbəb ola bilər. Odur ki, Paşinyan və onu dəstəkləyən siyasi qüvvələr ali qanunverici və icraedici orqanla yanaşı, məhkəmə sistemində də tam nəzarəti ələ almağa çalışırlar.

Nəhayət, Koçaryanın zaminə buraxılması Qarabağ klanının da gücünü göstərdi. Məlum olduğu kimi, Robert Koçaryan Azərbaycanın keçmiş vətəndaşıdır və Xocalı soyqırımının törədilməsinə rəhbərlik edənlərdəndir. Bütün hallarda, Nikol Paşinyan və onu dəstəkləyən siyasi qüvvə yeni imtahan qarşısındadır. Paşinyan bütün bunları yaxşı anladığından, proseslərin bu ssenari üzrə inkişafını əngəlləməyə çalışır və yenidən özünün başlıca resursu olan xalq dəstəyinə əl atıb.

**A.SƏMƏDOVA**

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Qənimətin erməni saatı və zırnıq

***Hər zaman olduğu kimi, bu dəfə də Azərbaycanda hər hər hansı bir mötəbər tədbir yaxınlaşdıqca, Qərbdən ölkəmizə qarşı təzyiqlər, daxili siyasətə müdaxilə və siyasi hakimiyyətə təsir cəhdləri müşahidə edilir. Ta "Avroviziya"dan başlayaraq, I Avropa Oyunlarına qədər, indi də UEFA finalı məsələsində qollar çırmanıb, tumanlar da qaldırılıb düz başların üzərinə...***

Yəni bizlər hazırda da eyni halı müşahidə etməkdəyik - erməni lobbisinin maliyyə yardımı ilə fəaliyyət göstərən anti-Azərbaycan şəbəkə, bu şəbəkənin satellitləri aktiv fəaliyyətdədir. Özü də, bu dəfə Azərbaycan əleyhinə yönələn fəaliyyət çoxşaxəli və çoxistiqamətlidir. Qənimətin guya qonaq qismində dəvət elədiyi dırnaqarası (!) adamların başında "həftə səkkiz, mən doqquz" Əli Kərimli və digər xainlər yığnağıdır ki, onların hər biri, hətta ermənidən də dəhşətli şəkildə Azərbaycan dövlətinə, xalqına qarşı havlayırlar, hürürlər, ulaşırlar, banlayırlar, böyürürlər, cikkildəşirlər və ...

Burada əsas məqsəd, Azərbaycanda mövcud olan sabitliyə, rifaha qarşı çıxmaq və aparılan islahatlara qarşı qarayaxma kampaniyalarını artırmaqdır. Təbii ki, bu prosesdə əsas fiqur rolunu isə Qərbdəki erməni lobbisi və Avropa ölkələrində küçələri, tualet və zibilxanaları gəzərək, "avropalaşmış" gəda-güdalardırlar. Bu baxımdan, "Azərbaycan saatı" adlı verilişinin, əslində, Yerevan saatı ilə quraşdırılması öz təsdiqini tapmaqdadır, özü də avropalı "saatsazların" dəstəyi ilə...

Lakin fakt budur ki, bu yığnağın uzun illərdir cəhdlərinə baxmayaraq, heç bir planlarına nail ola bilməmələri, onların nə qədər zəif olduqlarını sübuta yetirir. Belə gedərsə, erməni ağaları və qərbli serləri onlardan, qısa zamanda imtina edəcəklər. Özü də elə-belə yox - hazırkı dövrə qədər verdikləri pul-paraları geri qaytarmaq tələbləri ilə. Görəsən, onda Qənimət özünə haradan təzə ağa tapıb, nökərçiliyini davam etdirəcək? Yəqin ki, bu sualın cavabını da yaxında öyrənəcəyik.

Lakin hələlik, Azərbaycan yenə erməni lobbisinin və onun maraqlarına xidmət edən bəzi Qərb təsisatlarının hədəfindədir. Məqsəd, hər zaman olduğu kimi, siyasi hakimiyyəti, nə yolla olur-olsun, gözdən salmaq, ölkədə mövcud olan siyasi sabitliyi pozmaq, Azərbaycanı vətəndaş qarşıdurmasına sürükləməkdir. Ona görə də, axır vaxtlar guya ki, fəallaşıblar. Fəqət, bu fəallıq onlara heç nə vəd etmir. Vəd edilən isə, yalnız məğlubiyyət və rüsvayçılıqdır. Ona görə də, nə qədər havlasalar, hürsələr, ulaşsalar, banlasalar, böyürsələr, cikkildəsələr də, qonşumuz Sülüddin kişi demişkən, ortaya bir zırnıq çıxara bilməyəcəklər.

---

# ABŞ-da Konqres tarixində ilk dəfə iftar təşkil edilib

ABŞ Konqresi tarixində ilk dəfə amerikalı konqresmenlər üçün iftar süfrəsi açılıb. AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, iftar süfrəsi ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri İlxan Omar (Minnesota ştatı), Andre Karson (İndiana ştatı) və Rəşidə Tlaip (Miçiqan ştatı) tərəfindən Amerika Müsəlman Hüquqşünaslar Assosiasiyası ilə birgə təşkil edilib. İftarda ABŞ Konqresinin Nümayəndələr Palatasının çoxsaylı üzvləri və əməkdaşları iştirak ediblər. R.Tlaip iftarın böyük tarixi əhəmiyyətini qeyd edərək deyib: "Bizi qorxuya salmaq və nifrəti təşviq etmək üçün ədalətsizliklə təqib edirlər. Bu gün biz burada ədalətə və sülhə sadiq olduğumuzu nümayiş etdiririk".

2018-ci ilin noyabrında Konqresə aralıq seçkilərin yekunları əsasında tarixdə ilk dəfə iki müsəlman qadın ABŞ Konqresinin Nümayəndələr Palatasına üzv seçilib. Miçiqan ştatından Demokratlar Partiyasının nümayəndəsi, mənşəcə Fələstindən olan siyasətçi Rəşidə Klaip, Minnesota ştatından demokratların nümayəndəsi, əslən Somalidən olan İlxan Omar Konqresə seçilib.

# Antimilli qüvvələrin ifşası Əli Kərimlinin siyasi sonu olacaq

*Müxalifət düşərgəsində təmsil olunan dağıdıcı xislətli partiya sədrlərinin anormal fəaliyyətlərinin bütün çərçivələri aşdığını demək olar. Çünki hər fürsətdə, ölkəmizin milli və dövlətçilik maraqlarına zərbə vurmağa, uğurlu nailiyyətlərə kölgə salmağa çalışırlar. Hətta səhvlərini etiraf edib, xalqdan, Prezidentdən üzr istəyənləri belə hədəfə alır və onları satqınlıqda günahlandırırlar. Misal kimi, AXCP sədri Əli Kərimli, Emin Millinin buraxdığı səhvlərinə görə, Prezident İlham Əliyevdən üzr istəməsini tənqid edərək, onu "islah olunmuş mühacir" adlandırmasını göstərmək olar. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin düşüncəsində və ağlında problemlərin yarandığını və bu səbəbdən də, səhvlərini etiraf edərək, üzrxahlıq edən E.Millini hədəfə aldığını bildirdilər.*

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxalifət liderlərində siyasi etika və siyasi mədəniyyət çatışmazlığı var"



- Radikal müxalifət düşərgəsinin uzun müddət tənqid olunmasının bir səbəbi var ki, onlar siyasi etikadan kənar fəaliyyət göstərirlər. Bu adamların, həmişə radikal düşərgənin tənqid olunmasının, Azərbaycan ictimaiyyəti tərəfindən qəbul olunmamasının səbəblərindən biri də onların fəaliyyətlərinin siyasi etikadan kənar olmasıdır. Müxalifət, hətta müsbət işləri də tənqid edir. Heç vaxt deməzlər ki, tutaq ki, filan hərəkət olunub yaxşıdır və bu yaxşını təqdir etsinlər, pisi də tənqid etsinlər. Əslində, normal siyasət yaxşını təqdir etmək, onun daha da yaxşı inkişaf etməsinə çalışmaq, pisi isə tənqid etmək və problemin aradan qaldırılmasına yardımçı olmaqdır. Amma müxalifət Azərbaycanda görülən işlər haqqında bircə dəfə də olsun yaxşı fikir səsləndirməyib. Yaxşının özünü belə tənqid edirlər ki, bu da, siyasi etika baxımından yolverilməz haldır və bu, göstərir ki, bunlarda o siyasi etika və siyasi mədəniyyət çatışmazlığı var. Məsələnin başqa bir tərəfi də odur ki, bunlar həmişə Azərbaycan dövləti ilə Azərbaycan hakimiyyəti arasındakı fərqi qarışdırır və görüntü yaradırlar ki, guya hakimiyyəti tənqid edirlər. Amma çox vaxt hakimiyyəti yox, eyni zamanda, Azərbaycan dövləti və onun təməl prinsiplərinə qarşı çıxır və dövlətçiliyə qarşı mübarizə aparırlar ki, bu da, yolverilməz və siyasi etikadan kənardır. Ümumilikdə, bunların siyasi dünyagörüşlərində problemlər var. E.Milli uzun müddət Azərbaycan dövləti və hakimiyyətini tənqid edib. Ancaq indi öz səhvlərindən nəticə çıxarıb və üzr istəyib. O baxımdan da, bunların E.Millini tənqid etmələri dırnaqarası dərk etmək olar. Çünki özlərinin o siyasi mədəniyyət anlayışları olmadığına görə, başqaları da bu siyasi mədəniyyət anlayışını göstərəndə, onu başa düşmək imkanları yoxdur.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM

### İB-nin sədri Anar Xəlilov: "Əli Kərimli kimilər meydanda tək qalacaqlar"

- İstər Emin Milli olsun, istərsə də bu gün sosial şəbəkələrdə fəaliyyət göstərən xaricdəki söyüş kampaniyasında iştirak edən kiçik mühacir dəstə üzvlərindən hansısa başqası olsun. Hamısı Emin Millinin yolunu gedərək, gec-tez öz səhvlərinin başa düşərək, başda Prezident İlham Əli-



yev olmaqla, Azərbaycan xalqından etdikləri hərəkətlərə görə üzr istəyəcəklər. Onlar xaricdə, Əli Kərimli də daxildə anti-Azərbaycan qüvvələr tərəfindən maliyyələşən və dəstəklənən insanlardır. AXCP sədri Ə.Kərimli E.Millinin etdiyi səhvlərinə görə, Prezident İlham Əliyevdən üzr istəmələrinə qısqanclıqla yanaşır. Çünki artıq bunlar görürlər ki, E.Milli, digərlərinə nümunə olaraq, Azərbaycan xalqından və Prezidentindən üzr istədi. Onlar dərk edirlər ki, E.Millinin ardınca digərləri də etdikləri səhvlərini başa düşərək, xalqdan üzr istəyəcəklər. Ona görə də, Ə.Kərimli E.Millini hədəf seçməklə, bir növ onu peşman etmək istəyir. Ancaq ağılsızlıq edir. Artıq səhv yolda olanlar Ə.Kərimlinin və anti-Azərbaycan qüvvələrin məkrli niyyətlərini başa düşüblər. Onsuz da, bunların sıraları az idi, indi bundan sonra tamamilə azalacaqdır. Bir sözlə, Ə.Kərimli kimilər meydanda tək qalacaqlar.

*GÜLYANƏ*

# Güzəştli şərtlərlə pensiya hüququ olanlar üçün müasir Qəbul Mərkəzi istifadəyə verilib



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsində yeni və müasir Qəbul Mərkəzi istifadəyə verilib. Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mərkəz "Əmək pensiyaları haqqında" Qanunun 9-cu maddəsi üzrə pensiya hüququ yaranan şəxslərə xidmət göstərir. Onların sırasına hərbi və xüsusi rütbəli şəxslərlə yanaşı, dövlət qulluqçuları, həmçinin yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə, mülki aviasiya uçuş və uçuş-sınaq heyətində çalışmış şəxslər daxildir.*

Qəbul Mərkəzində güzəştli şərtlərlə pensiya hüququ olanların müraciətlərinə baxılması, suallarının cavablandırılması, vətəndaş məmnunluğunun təmin edilməsi prinsipi üzrə onlara operativ və şəffaf xidmətlərin göstərilməsi üçün zəruri şərait yaradılıb. Mərkəzdə səmərəliliyin təmin edilməsi məqsədilə müxtəlif kateqoriyadan olan və güzəştli təminat verilən şəxslərin qəbulu növbəlilik əsasında təşkil olunub. Belə ki, həftənin I, III və V günlərində hərbi və xüsusi rütbəli şəxslərin, II və IV günlərində isə dövlət qulluqçularının və güzəştli təminat verilən digər şəxslərin müraciətlərinə baxılır.

Mərkəzə gün ərzində 200-dək müraciət daxil olur. Müraciətlər əsasən xüsusi şərtlərlə pensiya təyin edilməsi, həmin pensiyaların yenidən hesablanması, müvafiq arayışların alınması və digər halları əhatə edir. Qəbul Mərkəzində hərbi və xüsusi rütbəli şəxslərə münasibətdə bir sıra müavinətlərin verilməsi ilə bağlı müraciətlərə də baxılır.

SİYASİ RAKURS

# Qarabağ klanı Nikola qalib gəlir

## *Ermənistanda qanlı qarşıdurmalar baş verə bilər*

*Ermənistandakı "məxməri inqilab"dan bir ildən artıq zaman keçsə də, Nikol Paşinyan hakimiyyəti, nəinki verdiyi siyasi-iqtisadi vədlərini yerinə yetirə bilmir, o cümlədən, Qarabağ klanı ilə mübarizədə açıq-aşkar uduzur. Bu reallıq özünü Ermənistanın ikinci, "DQR"-in isə birinci "prezidenti" olmuş Robert Koçaryanın azadlığa buraxılması faktında göstərdi. Özü də, Qarabağ ermənilərinin iki "prezidenti"nin - hazırkı Bako Saakyanla sabiq Arkadi Qukasyanın Yerevan məhkəməsinə gedərək, Koçaryana zamin dayanmaları müqabilində.*



Yeri gəlmişkən, onu da xatırlatmağa dəyər ki, Şuşanın işğalının növbəti ildönümündə "DQR"-də keçirilən mərasimə qatılan Nikol Paşinyan orada özünü, demək olar ki, tənha hiss edib. Daha doğrusu, nə Qukasyan, nə də Saakyan Paşinyanın həndəvərində görünməyərək, ondan yan gəziblər. Ermənistan mətbuatı da həmin nüansa diqqət çəkərək, Paşinyanın pərt vəziyyətdə qalması barədə yazılar dərc edib. Bunun da, əlbəttə ki, səbəbi var. Səbəb isə odur ki, həmin gündək hər iki "prezident" Koçaryanın bir neçə günlük azadlığa buraxılaraq, Şuşaya gəlməsi üçün müraciət ünvanladı, hətta zamin dayanacaqlarına da söz verdilər. Ancaq Nikol bu məsələni, Ermənistanın daxili işlərinə qarışmaq kimi qiymətləndirərək, hər ikisinin sözünü yerə vurdu. Bu fakt isə, onsuz da kəskin qarşıdurmalar həddinə çatmış Qarabağ klanı ilə Yerevan ermənilərinin alovlanmış münasibətlərinin üzərinə sanki benzin tökdü.

Beləliklə, həmin fakt Qukasyan-Saakyan cütlüyünün barışmaz mövqeyə keçmələrinə, habelə, Nikol Paşinyana qarşı daxili cəbhə açmalarına səbəb oldu. Yerevanda onların müraciətləri əsasında keçirilmiş məhkəmədə isə Paşinyan məğlub oldu - Koçaryan azadlığa buraxıldı!

### Qarabağ erməniləri Paşinyan hakimiyyətinə qarşı cəbhə açıb, taktiki hücumlara keçiblər

Artıq Qarabağ klanı bu münasibətlə, Ermənistan hakimiyyəti üzərində qələbəsini bayram edir. Düzdür, qarabağlı ermənilər Koçaryanın azadlığa buraxılması məsələsini başqa səmtə yozsalar da, fakt budur ki, onlar Paşinyan hakimiyyətinə qarşı cəbhə açıblar. Misal üçün, digər Qarabağ klanının üzvü - qondarma "DQR"-in "prezident aparatı rəhbərinin müavini" və "aparatın informasiya idarəsinin rəisi" David Babayan Bako Saakyanla Arkadi Qukasyanın Robert Koçaryanın azadlığa buraxılması ilə bağlı zəmanət vermələrini humanist yanaşma ilə əlaqələndirib və burada heç bir siyasi motivin olmadığını iddia edib. "Biri "Artsax"ın keçmiş, o biri isə hazırkı "prezidenti"dir və bu, birmənalı olaraq, humanitar addımdır", deyə qeyd edən David Babayan həmin vasitə ilə mövcud vəziyyəti öz xeyirlərinə yozmağa çalışıb. Ancaq görünən fakt budur ki, Koçaryanla bağlı məsələ, bilavasitə Qarabağ klanının Ermənistanın siyasi dairələrinə qarşı başlatdığı ilk taktiki hücum reallığıdır. Yəni onlar, çox qısa zamanda, Ermənistanda hakimiyyətə qarşı sərt, amansız və hətta insan qanı tökülə biləcək dövlət çevrilişinə başlamaq istəyindədirlər.

### Nikol bu dəfə özünə qarşı düşmən hakimlər ordusu formalaşdırır

Baş verənlərdən sonra vəziyyətin onun özü və bütövlükdə, hökuməti üçün nə qədər təhlükəli olması Nikol Paşinyanın Robert Koçaryanın azadlığa buraxılmasının ardınca məhkəmə sistemində təmizləmə əməliyyatlarına başlaması qərarından da açıq-aşkar görünməyə başlayıb. Ermənistanın baş naziri həmin addımını əksinqilabçılıqla mübarizə kimi təqim edib və erməni ictimaiyyətini bütün məhkəmələrin qarşısında etiraz aksiyaları keçirməyə, hakimlərin məhkəmə binalarına girib-çıxmalarına əngəl yaratmağa, qanunun tələblərinə qarşı çıxmağa çağırıb. Hələ də küçə siyasəti, "qələbə" eyforiyası ilə alışıb-yanan Paşinyanın həmin çağırışına nə qədər maraqlı olsa da, istədiyi qədər insan toplaşmayıb. Yəni bir insan ki, dövlət başçısı ola və onun siyasi iradəsi ölkənin idarə olunmasına çatmaya, bu zaman Ermənistanın siyasi arenasında nə qədər kəskin xaosun, özbaşınalıqların yaşandığını görmüş olarıq. Qarabağ ermənilərinin isə bu məsələdə hücum taktikası seçmələri ölkə üçün qorxulu proqnozlar verməyə başladıb. Lakin necə deyərlər, Paşinyan hələ də yerini isti bilir və reytinqinə güvənir. Ancaq bu, onun üçün də, komandası üçün də aldadıcı ola bilər. Misal üçün, Paşinyan onu da dərk etmir ki, artıq hökumətinin daxilində qütbləşmələr gedir və həmin qütbləşmələr onun iqtidarının parçalanmasına səbəb olmaqdadır. Əgər o, ucdantutma Ermənistanın bütün məhkəmələrinə "əl gəzdirəcəksə," bu zaman onun düşmənləri sırasına böyük bir hakim ordusu da qatıla bilər. Bu oyun isə, Qarabağ klanının əlinə oynaya biləcək bir haldır. Artıq Nikolun uduzmaq mərhələsinə keçid aldığını tam əminliklə demək mümkündür.

*Rövşən RƏSULOV*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 may 2019-cu il

# Anti-Azərbaycan qüvvələri "siyasi mühacir" adı ilə sülənənləri "əyləc mexanizmi" kimi istifadə edirlər

*Sevinc Osmanqızı və Əli Kərimli mənəviyyatdan və əxlaqdan uzaq düşən Qərbin əlaltılarıdır*

***Avropada özlərini "siyasi mühacir" kimi təqdim edib, Azərbaycan dövlətinə qarşı ermənilərdən də betər düşmənçilik mövqeyi sərgiləyən şəxslərin apardığı təbliğat, ciddi nəticə əldə etmədiyinə görə, ritorikalarını dəyişməyə başlayıblar. Xüsusilə də, son günlər Qərbin anti-Azərbaycan əlaltıları olanlar çox yaxşı başa düşür ki, apardıqları söyüş ritorikası cəmiyyət tərəfindən dəstəklənmir.***

Azərbaycan dövlətinin və xalqının əleyhinə fəaliyyət göstərən Orduxan Teymurxan və özü kimi üç-beş nəfər siyasi əxlaqsızların təlxəklik etmələri, bir nəticə vermədikdə, sosial şəbəkələr vasitəsi ilə boyunlarına aldıqları ləyaqətsizlik, mənəviyyatsızlıq, bişərəflik öhdəliklərini erməni aşnalarına məruzə etmək məcburiyyətində qalan mağara təfəkkürlü bu ünsürlər qəpik-quruşa görə, hər cür alçalmağa belə getməklə yanaşı, gülüş hədəfinə çevrilirlər. Çünki istər erməni lobbisi, istərsə də onların Orduxan kimi təlxəkləri, yaxşı bilir və dərk edirlər ki, Azərbaycan dövləti ən yüksək və ali tribunalarda Qarabağı işğalı faktı barədə dəlil və sübutlara söykənən gerçəkləri dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu gün orduxanlar və onun kimi bişərəflik simvollarına dəstək verən Osmanqızıların təxribatçı həyat tərzləri, ermənilərin sifarişlərini yerinə yetirməklə, özlərini sözün əsl mənasında, milli xəyanətin zirvəsinə yüksəltdilər.

Belə olan halda, onların özlərini azərbaycanlı adlandırmağa mənəvi haqqları yoxdur və çox qısa zamanda, S.Osmanqızı və Ə.Kərimli kimi əxlaqsız, bişərəflik simvolları, məhz Azərbaycan dövlətinin və xalqının qarşısında xəyanət və satqınçılıqlarına görə mütləq cavab verməli olacaqlar!



## Sevinc Osmanqızı ilə Əli Kərimli mənəviyyatdan, əxlaqdan uzaq düşən Qərbin əlaltılarıdır

Ona görə də bu hay-küylərin öz nəticəsini verməməsi isə, Ə.Kərimli və Sevinc Osmanqızı kimilərinin ciddi narahatçılığına gətirib çıxarır. Çünki bu adamlar da maraqlı idilər ki, ələ alınmış bu şəxslər daha çox söyüş söysünlər və dövlətimizin əleyhinə kəskin çıxışlar etsinlər. Brüsseldə Orduxanın keçirdiyi "tədbirdə" cəmi 3 nəfər iştirak edirdi. Çoxları başa düşür ki, səhv yolda olublar və onların apardığı üsul Azərbaycan cəmiyyəti tərəfindən qəbul edilmədi. Ə.Kərimli və S.Osmanqızının hər hansı təbliğatının, xüsusilə də, dönə-dönə pulla tutulanları qorxudaraq, daha çox söyən izləyicilərinin sayını artırmalarını tələb etmələri də bir nəticə vermədi. Çünki xalqımız çox yaxşı başa düşür ki, əslində, istər Ə.Kərimli, istər S.Osmanqızı, istərsə də O.Teymurxan və onun kimi tiplər Azərbaycan əleyhinə fəaliyyət göstərən bir sıra qrupların, güc mərkəzlərinin casus şəbəkəsinin üzvüdürlər. Yəni o qruplar məqsədli şəkildə hər zaman Azərbaycan dövlətinin nüfuzunun korlanmasında, mühüm beynəlxalq tədbirlərin keçirildiyi binaların qarşısında, Azərbaycan rəsmilərinin iştirak etdiyi tədbirlərdə bu tip adamlardan ölkəmizin əleyhinə istifadə edirlər.

## Siyavuş Novruzov: "Əli Kərimli ilə Sevinc Osmanqızı iki bülbül kimi səs-səsə verib..."

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov Qərbə satılmışların Azərbaycanın uğurlarına qısqanclıqla yanaşmalarına münasibət bildirərək, vurğulayıb ki, bu satılanlar ölkədə aparılan islahatları öz adlarına çıxarlar: "Burada məqsəd hakimiyyəti bu islahatlardan çəkindirmək, ya da bu islahatları öz adlarına çıxmaqdır. Adi bir zəlzələ zamanı insanların dərdinə şərik çıxmaq əvəzinə, deyirlər ki, filan vaxt mitinq edəcəyik. Bir məqamı da qeyd edim. Hazırda uşaqpulu ilə bağlı qanunvericilik hazırlanır, deyirlər ki, gəlin mitinq edək, sizə uşaq pulu verdirəcəyik. Əli Kərimli ilə Sevinc Osmanqızı iki bülbül kimi səs-səsə verib, islahatları fərqli formada çatdırmaq istəyirlər".

Millət vəkili onu da bildirib ki, Prezident xalqın maraqlarını həyata keçirir: "Atılan addımların heç biri xarici qüvvələrin təsiri ilə həyata keçirilmir. Sapı özündən olan baltaları başa düşürük. Azərbaycan dövləti Azərbaycan xalqının yanındadır. Deyirlər ki, niyə Prezident yanğında zərərçəkən insanlarla görüş keçirməyib. Prezidentin rayonda nümayəndəsi var, ilk gündə xalqla görüşdü. Əli Kərimlinin evini su basmışdı, özü getmədi, Prezident getdi, 5 min ev tikdirdi. Zaqataladakı zəlzələdə mindən çox ev tikildi. Şamaxıda, Ağsuda da evlər tikilməyə başlanıb. Məsələlərə bu cür yanaşmaları onların erməni xislətindən irəli gələn məsələdir. Biz bu islahatları, atılan addımları cəmiyyətə düzgün çatdırmalıyıq".

Bax, budur müxalifətin əsl siması. Ortada qrant olanda bir-birilərini tərifləyirlər, pul qurtaranda isə söyürlər. Çünki anti-Azərbaycan qüvvələri Ə.Kərimlini, S.Osmanqızını, O.Teymurxan və bu kimi əxlaqsızları ölkəmizin inkişafına qarşı "əyləc mexanizmi" kimi istifadə edirlər.

***Rəfiqə HÜSEYNOVA***



# Xarici qüvvələrin maşası...

**RƏFİQƏ**

Onları qınamıram. Yedikləri çörək haram tikədir. Mənəviyyatları olmayanlar belə adət ediblər. Şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan baltalar, istər ölkə daxilində, istərsə də ölkəmizdən kənarda "siyasi mühacir" adı altında yaşayan ünsürlər hər vasitədən istifadə etməklə, Azərbaycanın əleyhinə təbliğat aparırlar. Xaricdə özlərinə sığınacaq tapan bu cür satqınlar heç bir məsuliyyət hiss etmədən sosial şəbəkələrdə istədiklərini yazır. Belələrini əxlaqsız, mənəviyyatsız adlandıranda da, bir az da həyasızlaşır, iyrənc duruma düşür, ermənipərəst dairələrlə işbirliyi aparan Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Vidadi İsgəndərli və digər bu kimi əxlaqsızlar dövlətimiz və xalqımız haqqında iyrənc şər-böhtan və qarayaxma kampaniyaları aparmaqdan usanmayaraq, xarici qüvvələrin maşası ilə idarə olunurlar. Qəribəsi də odur ki, bir-birilərini qrant alverçisi adlandırırlar. Elə bu günlərdə Çexiyanın paytaxtı Praqada yaşayan Zamiq Məmmədli "Facebook" səhifəsində yenidən Məhəmməd Mirzəlinin qrant davasından sonra başlayıb ki, "bu həyasızlar qranta görə bir-birilərinə qurşaqdan aşağı təhqir yağdırırlar". Gülməli irad. Kor-kora kor deməsə, bağrı çatlar. Onun ardınca Z.Məmmədli yazır ki, "Bu "diktatoru tanıdaq" kimi axmaq "qrant alverçisi" aksiyanın layihə müəllifi Leyla Yunusdur. Bu, aydın məsələdir. Bu yaxınlarda Leyla Yunus "Siyasi məhbuslara yardım" layihəsi üzrə NED-dən (National Endowment for Democracy) 94000 avro qrant alıb, bir soruşun, hansısa siyasi məhbus ailəsinə ordan 10 avro veribmi?!. Z.Məmmədli bu informasiyadan sonra belə bir xəbərdarlıq da edir ki, "çalışın, bu fitvaya getməyin, siz ortalığa düşürsünüz, bu dəllallar pul qazanırlar".

Görün qrant bu satqın və əxlaqsızları necə üz-üzə qoyub. Bütün bunlar, əslində, Avropada oturub Azərbaycana qarşı kampaniya aparanların hansı yuvanın quşu olduqlarını tam aydın təsvir etməyə imkan verir. Amma bu xarici qüvvələrin maşası olan bu ünsürlər sadə bir gerçəkliyi dərk etmirlər ki, iqtidar olmaq - hakimiyyətə gəlmək üçün hansısa xarici dairələrdən yox, məhz xalqdan dəstək almaqdır.



# "Əli Kərimli ölkə içində sosial bazanı tam itirmək prosesi yaşayır"

"Bir vaxtlar radikal siyasi dünya görüşün hakim olduğu mühacirət çevrələrində indi maraqlı keyfiyyət dəyişmələri prosesi gedir. Az əvvələ qədər barışmaz və radikal, hətta bir çox hallarda adi etik çərçivəni qəti tanımayan yanaşmalar dəyişilir, bu insanların bir çoxu Azərbaycan reallıqlarına başqa cür baxmağa başlayır, tutulmuş yolun perspektivsiz olduğunu anlayır, ən əsası isə Azərbaycanda bəzi radikal partiya rəhbərləri üçün alət olmağın ziyanını dərk edirlər". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

O bildirib ki, bu keyfiyyət dəyişmələri Azərbaycanda "Milli Şura" deyilən qruplaşmaya daxil partiya rəhbərlərinə, o cümlədən Əli Kərimova sərf etmir: "Səbəbləri isə real və sadədir. AXCP sədri ölkə içində sosial bazanı tam itirmək prosesi yaşayır, apardığı siyasətə ictimai dəstək verilmir, tərəfdarları sürətlə azalır. Belə şəraitdə Əli Kərimovun xaricdə çox şey gözlədiyi həmin radikal qrupun siyasi keyfiyyət etibarilə dəyişməsi Əli Kərimovun maraqlarına təbii ki uyğun deyil və onu narahat edir".

Siyasi ekspert söyləyib ki, xaricdəki radikal qrupun keyfiyyət dəyişməsi Əli Kərimlinin maraqlarına iki cəhətdən uyğun deyil: "Əvvəla aktiv tərəfdarların fərqli siyasi düşüncələrə düşməsi bütün hallarda ona zərbə deməkdir. İkinci tərəfdən Əli Kərimlinin Azərbaycanda guya siyasi təqiblər siyasi mühacirlərin sayca artmasının əsas səbəbidir kimi hakimiyyət əleyhinə təbliğat və ittihamlar qurmaq imkanları daralır. Təbii ki, bəzi beynəlxalq qurumlarla manevr imkanları da azalır".

A.Quliyevin fikrincə siyasi baxışlarını dəyişən mühacirlər Əli Kərimli üçün indiki hakimiyyət nümayəndələri qədər arzuolunmaz düşmənlərə çevrilib: "Acı olsa da bu bir reallıqdır. Xaricdə mühacirlərin liberallaşma istiqamətində dəyişməsi davamlı prosesdir. Onlar artıq Azərbaycandakı radikal partiya rəhbərlərinə lobbiçilik etmək istəmirlər".

***Nailə Məhərrəmova***

## Azərbaycan 4 ayda ən çox İsveçrədən məhsul idxal edib

Azərbaycan cari ilin yanvar-aprel aylarında ən çox İsveçrədən məhsul idxal edib. Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a bildirilib ki, 4 ayda ölkəyə ən çox İsveçrə, Rusiya və Türkiyədən məhsul idxal olunub. İsveçrədən idxalın dəyəri 739 milyon 271 min ABŞ dolları, Rusiyadan 660 milyon 637 min dollar, Türkiyədən isə 440 milyon 924 min dollar olub.

## Xızıda ikimərtəbəli ev yanıb

Xızı rayonunda güclü yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, hadisə rayonun Altıağac kəndində ümumi sahəsi 150 kvadratmetr olan taxta konstruksiyalardan ibarət evdə qeydə alınıb. Nəticədə ikimərtəbəli beşotaqlı ev yanıb. Yaxınlıqdakı evlər yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

## İstanbulda 74 FETÖ-çu saxlanılıb

İstanbul Baş Prokurorluğu FETÖ terror təşkilatı ilə əlaqəsi olmaqda şübhəli bilinən 74 nəfər barəsində həbs qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edib. SİA xəbər verir ki, həmin şəxslərin saxlanılması ilə əlaqədar Türkiyənin 18 şəhərində 92 ünvanda əməliyyat keçirilib. Əməliyyatlar nəticəsində 74 nəfər saxlanılıb. Bundan əlavə, araşdırmalar nəticəsində terror təşkilatı ilə əlaqəsi olan yeni şəxslər haqqında da məlumat əldə edilib. Təhqiqat davam edir.

# Məişət zorakılığına qarşı mübarizə

***AQUPDK-nın Qadın Problemləri və Gender Məsələləri Şöbəsi Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi ilə birgə, Avropa Komissiyası və ACİ-YF İnsan Hüquqları və İdarəçilik Proqramı (Macarıstan) tərəfindən dəstəklənən "Məişət zorakılığı barəsində məlumatlandırma kampaniyası" mövzusunda həyata keçirdiyi ikiillik layihə çərçivəsində 2012-ci ilin iyulunda Ağcabədi, Beyləqan, Mingəçevir, Göygöl, Şəmkir, Şabran, Oğuz və Qaxda, avqust ayında Ağdam, Yardımlı, Ağstafa, Tovuz və Balakəndə, sentyabr ayında isə Qazax rayonunda məlumatlandırma kampaniyalarında "Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu" barədə qadınların və ictimaiyyətin məlumatlandırılması, hüquqi və psixoloji konsultasiyanın aparılması, hər altı aydan bir telefon sorğusu keçirməklə, gender zorakılığı haqqında statisik məlumatın toplanılması və rayonlarda şəbəkələrin daha da gücləndirilməsi kimi məsələlər müzakirə olunmuşdur.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2012-ci ildə ATƏT-in Baki Ofisi ilə birlikdə "Məişət zorakılığının qarşısının alınması haqqında Qanunla bağlı məlumatlandırma" mövzusunda seminar keçirmişdir. 2013-cü ildə sözügedən qurum 100-ə yaxın ali və orta ixtisas təhsil müəssisələrinin tələbələrinin iştirak etdiyi "Məişət zorakılığı ailə dəyərlərimizə ziddir" mövzusunda tədbir təşkil etmişdir.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2011-ci il 15 noyabr Qanununa əsasən, Cinayət Məcəlləsinə qadını nikaha daxil olmağa məcbur etməyi qadağan edən və buna görə sanksiyalar nəzərdə tutan 176-1-ci maddə daxil edildi. Bu maddədə həmin əməlin nikah yaşına çatmayan şəxs barəsində törədilməsinə görə daha ağır cəza nəzərdə tutulur. Qanunvericiliyə edilən bu dəyişikliklər erkən nikah hallarının qarşısının alınmasında da xüsusi əhəmiyyətə malikdir. Araşdırmalar göstərmişdir ki, əksər hallarda qızların erkən yaşda ərə verilməsi onların valideynlərinin razılığı ilə baş verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Sosial xidmət haqqında" AR Qanununa müvafiq olaraq, 2013-cü ildə məişət zorakılığına məruz qalmış şəxslərin reabilitasiyası istiqamətində müsabiqə elan edilmiş və ixtisaslaşmış qeyri-hökumət təşkilatı ilə müqavilə imzalanmışdır. Layihənin icrası istiqamətində Sumqayıt şəhərində yaradılmış "Uşaq və Qadınlar üçün Yardım Mərkəzi"ndə zorakılığa məruz qalmış şəxslərə reabilitasiyanın təşkili, onlara sosial-psixoloji reabilitasiya, ailəyə dəstək xidmətlərinin göstərilməsi və onların problemlərinin həlli məqsədilə müvafiq qurumlara yönəldilməsi kimi xidmətlər göstərilmişdir.

BMT-nin Əhali Fondu (UNFPA), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), BMT-nin İnkişaf Fondu (UNDP), Beynəlxalq Miqrasiya Təşkilatı və Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti ilə birgə 2008-ci ildən başlayaraq, Azərbaycanda qaçqın və məcburi köçkün icmalarında gender əsaslı zorakılığın azaldılması məqsədilə beş illik layihə həyata keçirmişdir. Layihədə 14 ərazi əhatə olunmuşdur. Layihə çərçivəsində 2012-ci ildə "Erkən nikahlara yox" şüarı altında "Erkən nikahlar: 50 suala 50 cavab" adlı buklet hazırlanmış və əhaliyə paylanılmışdır. Bukletdə nikah anlayışı, etibarlı nikahlar, erkən nikahın səbəbləri, fəsadları, qarşısının alınması, məsuliyyət və cəza öz əksini tapmışdır. Layihənin yekunu olaraq, 25 noyabr 2013-cü il tarixində 16 günlük Fəallıq Kampaniyası çərçivəsində "Qadınlara qarşı zorakılığa YOX deyək" layihəsinin yekunlarına həsr olunmuş tədbir keçirilmişdir.

S.Abbasova yazır: "Yeri gəlmişkən, dövlət qurumları Azərbaycan cəmiyyətinin üzləşdiyi ciddi sosial problemlərdən olan erkən nikahlarla mübarizəni, strateji istiqamət olaraq qəbul edirlər. Məsələ ondadır ki, müstəqilliyin ilk illərində əvvəlki sovet sisteminin dağılması ailə-nikah münasibətlərinin hüquqi tənzimlənməsi mexanazmilərini kəskin zəiflətdi və bu da erkən yaşda qızların ərə verilməsi kimi zərərli ənənənin, ələlxüsus, bölgələrdə kütləviləşməsinə gətirib çıxardı. Digər tərəfdən, keçid dövründə bir çox ailələrin maddi durumunun son dərəcə pisləşməsi də erkən nikahların geniş yayılmasına şərait yaratdı. Statistik göstəricilərə görə, 1999-2011-ci illərdə Azərbaycan Respublikası üzrə nikaha daxil olan erkən yaşlı qızlar, bu illər ərzində, nikaha daxil olan qadınların ümumi sayına nisbətən, ən çox 1999-cu ildə (7,1%), ən az isə, 2003-cü ildə olmuşdur (4,6%). 2007-ci ildən isə, bu göstəricilər artmaqdadır. Hazırda nikaha daxil olan qadınların, ümumi sayına nisbətən, 18 yaşadək olan qızlar 6,17 % təşkil edir."



Azərbaycan Dövlət Statistika Komitəsi, BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyi və AQUPDK-nin maddi və texniki dəstəyi ilə birgə 2010-cu ildə ölkənin regionlarının şəhər və kənd yerlərində "Qızların erkən nikaha daxil olması və rəsmi və qeyri-rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinə keçirilmişdir. Onun bilgilərinə əsasən, 18 yaşadək erkən nikaha daxil olan qadınların 38,9 %-i şəhər, 61,1%-i isə kənd yerlərində qeydə alınmışdır. Erkən nikaha daxil olan qadınların 37,4%-i öz istəyi ilə, 25,9%-i valideynlərinin təzyiqi altında, 10,7%-i ailədə maddi vəziyyətin çətin olduğuna görə, 7,9%-i ərinin maddi cəhətdən varlı olmasına görə, 6,4%-i qaçırıldığına və 1,6 %-i hamilə olduğuna görə, erkən nikaha daxil olmuşdur. 16 yaşda öz istəyi ilə, 15 yaşda hamilə olduğuna görə, erkən nikaha daxilolma hallarının xüsusi çəkisi daha yüksək olmuşdur. Qaçırılma halları 15 və 17 yaşlılar arasında daha çox baş vermişdir.

AQUPDK YUNİSEF-in dəstəyi ilə erkən nikahlar problemi araşdırılmış və xüsusi koordinasiya qruplarının vasitəsilə bir çox rayonda tədqiqatın nəticələrini bəyan etmişdir. Layihə çərçivəsində, həmçinin, bir sıra rayonlarda əhalini bilgiləndirmək və qız uşaqlarının məktəblərdə təhsilinə xitam verilməsinin qarşısını almaq məqsədilə polis əməkdaşı, din xadimi və kənd nümayəndəsinin daxil olduğu qruplar yaradılmışdır. Bundan əlavə, 2010-cu ilin oktyabrından, həmçinin, "Davranışı dəyişdirmək üzrə sosial kommunikasiya" adlı erkən nikahlar üzrə bir başqa layihə həyata keçirilməkdədir. Onun çərçivəsində bir neçə rayonda erkən nikahların səbəblərinin aydınlaşdırılması üçün hakimiyyət orqanlarının iştirakı ilə ictimai müzakirələr təşkil olunmuşdur. Keçirilmiş müzakirələr rayon ictimaiyyətinə erkən nikahlar probleminin çözümünə yanaşmaları müəyyənləşdirməyə və onun aradan qaldırılmasına dair tədbirlər işləyib-hazırlamağa imkan verir.

S.Abbasovanın fikrincə, Azərbaycan rəhbərliyinin 2012-ci ilin sonlarında nəşr etdirdiyi "Azərbaycan - 2020; Gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyinin təmin olunması və ailə institutunun inkişaf etdirilməsi dövlətimizin modernləşmə strategiyasının prioritet vəzifələri sırasında sadalanmışdır. Konsepsiyada, xüsusi olaraq vurğulanır ki, "ölkədə gender problemi diqqət mərkəzində saxlanılacaq və onun həlli istiqamətində müvafiq tədbirlər hayata keçiriləcəkdir. Bu sahədə dövlət siyasətinin əsas istiqamələrini gender zorakılığı hallarının qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanlarının yaradılması, qadınların işdə irəli çəkilmələri və rəhbər vəzifələr tutmaq imkanlarının daha da genişləndirilməsi məsələlərini təşkil edəcəkdir."

Beləliklə, gətirilən faktların təhlili Azərbaycan Respublikasında qadınlara qarşı zorakılığın aradan qaldırılması sahəsində, xüsusən də, son illərdə olduqca güclü hüquqi-normativ bazanın yaradılmasından xəbər verir. Lakin məsələnin mentallıqla, patriarxal təsəvvürlərlə bağlılıqları da danılmazdır. Sosio-psixoloji amillərlə şərtlənmiş bu cəhətlərin aradan qaldırılması uzun və sistemli iş tələb edir. Başda Prezident İlham Əliyev Cənabları olmaqla, Azərbaycan rəhbərliyinin son zamanlar bu istiqamətdə atdığı addımlar dövlətimizin qadın zorakılığına qarşı mübarizədə təsirli fəaliyyətinin ifadəsidir və problemin yaxın gələcəkdə kompleks həllinə əminlik yaradır.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 22 may




## YAP Binəqədi rayon təşkilatının kollektivi “Nəsimi İli” çərçivəsində Şamaxı şəhərinə səfər edib

***YAP Binəqədi rayon təşkilatı M.Ə.Rəsulzadə qəsəbəsi, H.Ağamalıyev küçəsi - 5 ünvanlı ərazi ilk partiya təşkilatı ilə birgə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, 2019-cu ilin “Nəsimi İli” çərçivəsində görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin doğulduğu Şamaxı şəhərinə səfəri təşkil edilib. Səfərdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov və təşkilatın gənc fəalları iştirak ediblər.***

Şamaxı şəhərinə səfər zamanı yolüstü Acıdərədə Türk Məzarı Xatirə Abidəsi ziyarət olunub. Bakının işğaldan azad olunması istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş türk qardaşlarımızın əziz xatirəsi ehtiramla yad edilib və abidə önünə gül dəstələri qoyulub.

YAP Binəqədi rayon təşkilatının fəalları, səfər çərçivəsində, Şamaxı Cümə məscidində olublar. Burada nümayəndə heyətini YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov və digər rəsmi şəxslər qarşılayıb. Məscid haqqında səfər iştirakçılarına ətraflı məlumat verilərək, bildirilib ki, məscid 743-744-ci illərdə inşa edilmişdir. Şamaxı cümə məscidi Cənubi Qafqazda Dərbənd cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bir neçə dəfə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə baş vermiş Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, sonra isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən yandırılmış məsciddə son bərpa işləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, 2010-2013-cü illərdə aparılıb.

Sonra böyük Azərbaycan şairi Nəsiminin Şamaxı şəhərində, şairin adını daşıyan parkda ucaldılmış abidəsi ziyarət olunub, şairin əziz xatirəsi ehtiramla yad edilərək, önünə gül dəstələri düzülüb. Gənclər Nəsiminin qəzəllərindən nümunələr səsləndiriblər.

Daha sonra iştirakçılar Şamaxı Astrofizika Rəsədxanasında olublar. Bələdçi rəsədxananın tarixi və fəaliyyəti haqqında məlumat verərək, bildirib ki, dünyanın ən böyük rəsədxanalarından biri olan bk rəsədxana 1959-cu ildə yaradılıb. Buradakı teleskoplar vasitəsilə bir neçə planetlə yanaşı, ayı da müşahidə etmək mümkündür. Həmçinin, azərbaycanlı alimlərin çoxsaylı uğurlarından danışılaraq, onlar tərəfindən edilən kəşflərdən bəhs edilib. Bələdçi, həmçinin, iştirakçıların suallarını cavablandırıb.

Səfər çərçivəsində, eyni zamanda, Şamaxının Məlhəm və zəngin turizm potensialı olan tarixi Dəmirçi kəndi ziyarət olunub. XV əsrə aid, Şamaxının ən qədim kəndlərindən biri olan Dəmirçi kəndi öz zəngin tarixi görünüşü və turizm potensialı ilə diqqəti cəlb edir. Kənddə olarkən, turizm məkanlarında səfər iştirakçıları, həmçinin xalq sənətkarlığının və milli mətbəximizin nümunələrini əks etdirən müxtəlif mərkəzlərdə - “Azərxalça” ASC-də və s. yerlərdə olublar. Buradakı şəraitlə bağlı mərkəz işçiləri tərəfindən iştirakçılara məlumatlar verilib.

Səfərin sonunda asudə vaxtlarını səmərəli keçirmək məqsədilə gənclər üçün müxtəlif idman yarışları təşkil edilib.

Zəngin tarixi olan Şamaxı şəhəri iştirakçılarda xoş təəssüratlar yaradıb.

***Zümrüd BAYRAMOVA***

## Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının şura iclası keçirilib

<u>Hikmət Şikarov:</u> “YAP Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı, müasir Azərbaycan gəncliyinin güvənc yeridir”

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının şura iclası keçirilib. İclasda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının şura, idarə heyətinin üzvləri və ərazi ilk partiya təşkilatlarının sədrləri iştirak ediblər. Himnin səslənməsindən sonra Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov iclasın gündəliyini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. İclasın gündəliyi səsvermə yolu ilə qəbul edildikdən sonra müzakirələrə başlanılıb.***







Gündəlikdə duran birinci məsələ sosial şəbəkələrdə fəaliyyətlə bağlı olub. H.Şikarov bildirib ki, sosial şəbəkələr əsl XXI əsr hadisəsi - internet fenomenidir. “Bir neçə il öncə, kimsə sosial şəbəkələrin həyatımıza bu qədər daxil olacağına inanmazdı” deyə qeyd edən YAP Pirallahı rayon təşkilatının sədri bildirib ki, bu gün insanların əksəriyyəti sosial şəbəkələrin istifadəçiləridir: “Sosial şəbəkələr həm də ideoloji işin aparılmasında mühüm təbliğat vasitəsidir”.

Gündəlikdə duran ikinci məsələ - mədəni-kütləvi tədbirlərin keçirilməsi ilə bağlı olub. Bu məsələdə xüsusi iradlarını bildirən H.Şikarov qarşıdan gələn “28 May - Respublika Günü” və “15 İyun - Milli Qurtuluş Günü” münasibətilə ərazi ilk partiya təşkilatlarında keçiriləcək tədbirlərin KİV-də işıqlandırılması barədə göstəriş verib.

Gündəlikdə duran üçüncü məsələ üzrə ərazi ilk partiya təşkilatlarının fəaliyyəti və partiya sıralarına yeni üzvlərin cəlb olunması ilə bağlı kəskin iradlarını bildirən H.Şikarov partiya fəaliyyətində qeyri-fəallıq nümayiş etdirən bir neçə ərazi ilk partiya təşkilatı sədrinə xəbərdarlığını çatdırıb.

Gündəlikdə duran dördüncü məsələ - Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin fəaliyyəti ilə bağlı olub. “Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır” deyə qeyd edən H.Şikarov vurğulayıb ki, bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir: “Bu gün Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olmasının arxasında, məhz dövlətçiliyə bağlılıq və milli mənafenin qorunması kimi müqəddəs amallar dayanır. YAP Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı və müasir Azərbaycan gəncliyinin güvənc yeridir. Azərbaycan gəncliyinin mütləq əksəriyyəti Ulu Öndər ideyaları ətrafında sıx birləşərək sadiqlik nümayiş etdirir. Gənclərimiz hər zaman Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər. Buna görə də, biz gənclərimizə böyük ümidlər bəsləyirik. Son illər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə gənclərə önəm verilməsi və etimad göstərilməsi, məhz bu faktın göstəricisidir”.

İclasda qonaq qismində iştirak edən Pirallahı RİH başçısının müavini Anara Hacıbəyli Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatına gələcək fəaliyyətində yeni-yeni uğurlar arzu edib.

İclasın sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş üzvlərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

***Rövşən NURƏDDİNOĞLU***

## ELAN

ADPU-nun Sosial-iş ixtisası üzrə III kurs tələbəsi Məmmədov Şəhriyar İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
<u>“Azərbaycan” nəşriyyatında çap olunur</u>
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**